**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

**8 oktyabr 2021-ci il**
**№38 (8946)**

www.muallim.edu.az
muallim@edu.gov.az



# Prezident İlham Əliyev Cəbrayılda tam orta məktəbin təməlini qoyub

## Cəbrayıllı şagirdlər ən müasir tələblərə cavab verən təhsil ocağında oxuyacaqlar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, 960 şagirdin təhsil alacağı yeni məktəb binasında hər cür inventarla təchiz olunmuş sinif otaqları, fənn kabinetləri fəaliyyət göstərəcək. Məktəbin həyətində geniş idman meydançası tikiləcək ki, bu da sağlam nəslin yetişməsi üçün vacib amillərdəndir. Bir sözlə, doğma torpaqlarına geri dönən cəbrayıllı şagirdlər ən müasir tələblərə cavab verən təhsil ocağında oxuyacaqlar. 145 yaşlı bu tam orta məktəblə yanaşı, Cəbrayıl şəhərində daha 3 məktəbin tikilməsi də nəzərdə tutulur.

Qeyd edək ki, məktəb 1876-cı ildə tikilib istifadəyə verilmişdi.

Prezident İlham Əliyev məktəbin təməlini qoydu.



## Azərbaycanın parlaq gələcəyinə töhfə

Məlumdur ki, müasir dünya reallıqları şəraitində ölkənin inkişafı yüksək ixtisaslı, müasir səriştə və bacarıqlara sahib insan kapitalından, onun intellektual səviyyəsindən çox asılıdır. Bu isə bir çox hallarda ölkənin davamlı inkişafında həlledici rol oynayan elmi-tədqiqatçıların hazırlanmasını zərurətə çevirir.

Dövlətimizin təhsil sahəsinə yüksək diqqət və qayğısının bariz nümunəsi olan "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" və "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" yenilikçi, müasir düşüncəli, yüksək hazırlıqlı milli mütəxəssislərin yetişməsində mühüm rol oynayıb. Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" 30 sentyabr 2021-ci il tarixli Sərəncamı da bu sahədə ölkəmizdə yüksək hazırlıqlı mütəxəssislərin hazırlanması işinə mühüm töhfədir.

⇨Ardı səh.9

## BU SAYIMIZDA

### Peşə öyrənən ali təhsillilər



Dövlət tərəfindən peşə təhsilinə xüsusi diqqətin ayrılması, peşə təhsili müəssisələrinin maddi-texniki bazasının yenilənməsi, əmək bazarının tələblərinə uyğun müasir peşələrin yaranması son illər yeniyetmələrin və gənclərin bu sahəyə marağını xeyli artırıb. Bu gün xeyli sayda gənc ali təhsil müəssisəsini bitirməsinə baxmayaraq peşə təhsili müəssisələrinə üz tutur.

⇨səh.2

### Təhsildə yeni çağırışlar




Oktyabrın 1-i Azərbaycanın təhsil tarixində çox əlamətdar hadisə ilə yadda qalıb. Belə ki, həmin gün keçirilən Təhsildə Yeni Çağırışlar II Beynəlxalq Forumu təhsil nazirinin və o cümlədən dünya şöhrətli spikerlərin çağırışları, əhatəliliyi, iştirakçı sayı, mötəbərliliyi, gündəmə çıxardığı məsələlərin aktuallığı baxımından çox yüksək qiymətləndirilə bilər.

⇨səh.8

### "ZƏFƏR ilinin MÜƏLLİMİ"




Sözügedən layihə çərçivəsində Təhsil Nazirliyinin internet resurslarında 44 günlük Vətən müharibəsində döyüşən, o cümlədən şəhid olan müəllimlərimiz haqqında posterlərin, yazı, müsahibə, videosüjetlərin hazırlanaraq #ZəfərİlininMüəllimi həştəqi altında yayımı nəzərdə tutulur.

⇨səh.10

# Bərdə Peşə Liseyinin açılışı olub

## Prezident İlham Əliyev açılış mərasimində iştirak edib



Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə Peşə Liseyinin açılışında iştirak edib. Ölkə başçısı Bərdə Peşə Liseyində yaradılmış şəraitlə yaxından tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məlumat verilib ki, peşə liseyində aparılan yenidənqurma işləri nəticəsində beynəlxalq standartlara cavab verən maddi-texniki baza ilə təchiz olunmuş 4 mərtəbəli tədris binası, hər biri 192 yerlik olan 2 yataqxana, 3 mərtəbəli emalatxana və laboratoriya korpusu, texnikaların saxlanması üçün 3 korpusdan ibarət qaraj və digər köməkçi binaların tikintisi həyata keçirilib.

Bildirilib ki, 2021-2022-ci tədris ilindən başlayaraq ilk dəfə olaraq yüksək texniki peşə təhsil səviyyəsi üzrə tədris aparan 6 peşə təhsil müəssisəsindən biri də Bərdə Peşə Liseyidir. Ümumilikdə 4 regionda həyata keçirilən sözügedən təhsil səviyyəsinə qəbul Bərdə Peşə Liseyində nəqliyyat vasitələrinin texniki istismarı (avtomobil üzrə), binaların tikintisi və istismarı, sənayedə avadanlıqların quraşdırılması və texniki istismarı, sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və istismarı, baytarlıq və heyvandarlıq işi, həmçinin mühasibat uçotu ixtisasları üzrə aparılıb. Yeni tədris ilindən başlayaraq tədris yenilənmiş kurikulumlar əsasında həyata keçirilir. Tələbələrin liseydə ödənişsiz əsaslarla təhsil alaraq dövlət təqaüdü almaq imkanları var.

Heyvandarlıq, bitkiçilik, aqroservis və avtomobil təmiri istiqaməti üzrə ixtisaslaşan Bərdə Peşə Liseyinə yeni tədris ilindən etibarən elan olunan 600 yer üzrə 533 nəfər tələbənin qəbulu həyata keçirilib. 2021-2022-ci tədris ilində 1150 yerlik liseydə avtomobil təmiri çilingəri, geniş-profilli traktorçu maşinist, heyvandarlıq mütəxəssisi, bitkiçilik mütəxəssisi, aqroservis mütəxəssisi və kompüter operatoru ixtisaslarının tədrisi aparılmaqdadır.

Qeyd edək ki, ölkəmizdə peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bu sahədə peşəkar tədris prosesinin qurulması, əmək bazarının, o cümlədən işəgötürənlərin tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunması qarşıda duran əsas vəzifələrdən biridir. Son dövrlər Bakı ilə yanaşı, bölgələrdə də yeni peşə təhsili müəssisələri qurulur. Yeni istifadəyə verilən Bərdə Peşə Liseyi də bu istiqamətdə həyata keçirilən layihələrdən biridir.







# Peşə öyrənən ali təhsillilər

**Təhsil sistemində son illər ən sürətlə inkişaf edən sahələrdən biri də peşə təhsilidir. 2016-cı ildə ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq fərmanına əsasən “Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Yol xəritəsi” təsdiq edilib. Sənəddə peşə təhsili və təlimi sektoru üzrə 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış müəyyən edilib. Dövlət tərəfindən peşə təhsilinə xüsusi diqqətin ayrılması, peşə təhsili müəssisələrinin maddi-texniki bazasının yenilənməsi, əmək bazarının tələblərinə uyğun müasir peşələrin yaranması son illər yeniyetmələrin və gənclərin bu sahəyə marağını xeyli artırıb. Təsadüfü deyildir ki, bu gün xeyli sayda gənc ali təhsil müəssisəsini bitirməsinə baxmayaraq özlərini inkişaf etdirmək, əmək bazarının tələblərinə uyğun bacarıqlara yiyələnmək üçün peşə təhsili müəssisələrinə üz tutur. Bütün bunlar bir daha onu göstərir ki, peşə təhsili artıq bir seçim deyil, həm də günün tələbidir. Fürsətdən istifadə edib ali təhsil müəssisəsini bitirib, peşə təhsili müəssisələrinə üz tutan gənclərimizlə söhbətləşdik. Onlarda bu sahəyə marağın haradan qaynaqlandığını öyrəndik.**

## Peşə təhsili bir seçim deyil, günün tələbidir

### “Düşünürəm ki, əmək bazarında özümə asanlıqla yer tapa biləcəyəm”

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzinin tələbəsi Əsədulla İbrahimov Odlar Yurdu Universitetinin məzunudur. Ali məktəbdə avtonəqliyyat ixtisası üzrə təhsil alsa da, hazırda o sahədə işləmədiyini bildirib: “Universiteti bitirdikdən sonra öz ixtisasım üzrə iş tapmaqda çətinlik çəkdim. Sonralar yavaş-yavaş elektrik avadanlıqlarının həm satışı, həm də quraşdırılması ilə məşğul oldum. Zaman keçdikcə anladım ki, mən özümü bu sahədə tapmışam. Sənətimi daha da mükəmməlləşdirmək üçün əlavə təhsil almağın vacibliyini də düşünürdüm. Araşdırma apardıqdan sonra elektrik sahəsi üzrə peşə təhsili məktəblərində uyğun ixtisaslar olduğunu öyrəndim. Beləliklə, sənədlərimi Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzinə təqdim etdim. Hazırda həmin məktəbdə müasir elektrik avadanlıqlarının təmiri və tənzimlənməsi, PLS ixtisası üzrə mütəxəssis ixtisasında təhsilimi davam etdirirəm. Düşünürəm ki, bu ixtisasa tam olaraq yiyələndikdən, bilik və bacarığımı artırdıqdan sonra əmək bazarında özümə asanlıqla yer tapa biləcəyəm”.

### “Oxumaq, öyrənmək heç vaxt gec deyil”

Həmsöhbətlərimizdən biri də Leyla Həsənovadır. O, ali təhsilini Bakı Musiqi Akademiyasında alıb. Hazırda ali təhsil ixtisası üzrə Niyazi adına simfonik orkestrində solist kimi çalışır. L.Həsənova həmçinin uzun illərdir ki, toy və müxtəlif tədbirlərin musiqi və art hissəsinin təşkili ilə də məşğuldur. Bu sahədə təhsilini, bilik və bacarığını təkmilləşdirmək məqsədilə peşə təhsili müəssisəsinə üz tutub. Hazırda Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzi 5 nömrəli Bakı Peşə Məktəbində tədbirlərin təşkilatçısı ixtisası üzrə təhsil aldığını deyir: “Uzun illərdir ki, təşkilatçılıq işi ilə məşğul olmağıma baxmayaraq bilik və bacarığımı təkmilləşdirmək üçün peşə məktəbinə üz tutdum. Oxumaq, öyrənmək heç vaxt gec deyil. Bu sahə mənim üçün həm maraqlı, həm də perspektivli görünür. Onu da qeyd edim ki, məktəbdə çox səmərəli dərslərimiz keçir. Seçimimdə yanılmadığım üçün sevincliyəm”.

### “Arzularımı reallaşdırmaq üçün peşə məktəbində təhsil almağı qarşıma məqsəd qoydum”

Şahnaz Salmanova ali təhsilini Rusiya Federasiyasında alıb. Əmək bazarında özünə yer tapmaq üçün peşə təhsili müəssisəsinə müraciət edərək Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzi 5 nömrəli Bakı Peşə Məktəbində təhsilini davam etdirib. O, karyera planlamasının nəzərdə tutduğu kimi olduğunu bizimlə bölüşüb: “Düşünürəm ki, işlə təmin olunmaq üçün mütləq peşəyə yiyələnmək lazımdır. Mən də iş tapmaq, arzularımı reallaşdırmaq üçün peşə məktəbində təhsil almağı qarşıma məqsəd qoydum. Allaha şükürlər olsun ki, məqsədimə çatdım. Elə peşə məktəbində oxuyarkən istehsalat təcrübəsini CBC kanalında keçdim. Rus dilini mükəmməl bildiyim üçün məni həmin kanalda işlə təmin etdilər”.

**Niyazi RƏHİMOV**

# Cəbrayıl şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Cəbrayıl şəhərində 960 şagird yerlik akademik Mehdi Mehdizadə adına tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 4 oktyabr 2021-ci il*



# Azərbaycan Respublikasının təhsil işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə aşağıdakı təhsil işçiləri təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Abbasov Ənvər Məhəmməd oğlu
Ələkbərova Faina Emmanuilovna
Xanlarova Sara Cəbrayıl qızı
Xəlilov Vidadi Cəmil oğlu

**"Tərəqqi" medalı ilə**

Abduləzimova İradə Baxış qızı
Abdullayeva Yeganə Akif qızı
Ağakişiyev Aslan Gənci oğlu
Ağamalıyeva Sədiqə Qəfər qızı
Ağayeva Əminə Bəxtiyar qızı
Allahverdiyev Yaşar İsmayıl oğlu
Apayeva Hüsnəxanım Şixəmməd qızı
Babayev Habil Heydər oğlu
Babayev Həbibulla Canisab oğlu
Babayev Şöyüb Əkbər oğlu
Bağırlı Nigar Əhməd Soltan qızı
Bağırov Fərhad Qurban oğlu
Balakişiyev Şahbaz Şəmməd oğlu
Bayramova Gülbəniz Məhərrəm qızı
Cavadov İlham Ağaqardaş oğlu
Cəbrayılov Samir Adil oğlu
Dadaşova Mənzər Ramiz qızı
Dəmirova Fərqanə Vahid qızı
Əhmədov Hümeyir Hüseyn oğlu
Əhmədov Vidadi İsgəndər oğlu
Əhmədova Təranə Sarxan qızı
Əhmədova Tutu Rza qızı
Əkbərova Mehriban Telman qızı
Ələkbərova Mənzər Nadir qızı
Əliyev Famil Abbas oğlu
Əliyeva Təranə Qaraş qızı
Əlizadə Xavər Şükür qızı
Əsədova Lalə Hacıbala qızı
Hacınskaya Reyhan Əkbər qızı
Hacıyev Asif Xatabala oğlu
Heydərova İlahə Xanəsən qızı
Həsənova Afət Musa qızı
Hüseynova Aidə Əli qızı
Hüseynova Laləzar Amil qızı
Hüseynova Südabə İsa qızı
İbrahimova Təranə Qəzənfər qızı
İsakov Mübariz Məmməd oğlu
İsmayılov Bünyad Fikrət oğlu
İsmayılova Sücayət Yaqub qızı
İsmayılova Sveta İldırım qızı
Kazımov Yaşar Nurəddin oğlu
Kərimova Mətanət Elçin qızı
Qasımova Nuriyyə Aslan qızı
Qulamov Elmar Rəfail oğlu
Quliyeva Simuzər Valeh qızı
Quliyeva Ulduz İsmixan qızı
Quluyeva Sədaqət Tofiq qızı
Qurbanova Gülbəniz Cəfərqulu qızı
Mahmudova Pərvanə Seyidağa qızı
Mehdiyeva Elmira Xasay qızı
Məmmədov Zəfər Həsən oğlu
Məmmədova Arzu Ramiz qızı
Məmmədova Elnarə Bahadir qızı
Məmmədova İradə Maşallah qızı
Məmmədova Kübra İbrahim qızı
Məsimova Samirə Nəriman qızı
Məstəliyev Elnur Mətləb oğlu
Mirzəyeva Gülnar Əlhəm qızı
Mirzəyeva Mehparə Ramazan qızı
Mirzəyeva Təranə Mirzə qızı
Muradova Şükufə Müslüm qızı
Musayeva Rəna Qiyas qızı
Mustafayeva Şəhla Gürşad qızı
Osmanova Nailə Paşa qızı
Rəhimova Afaq Vüqar qızı
Rəhimova Nuranə Elman qızı
Rəsulova İlahə Zahid qızı
Rufullayev İlham Hacıvəli oğlu
Rufullayev Qədir Məzahim oğlu
Rüstəmova Qəmər Xalıq qızı
Rzayeva Səbinə Rahil qızı
Sadıqov Fərman Əlövsət oğlu
Sadıqov Şəmil Kamil oğlu
Soltanova Əsli Məhəmməd qızı
Süleymanov Sahib Qədir oğlu
Şirinova Nəzakət Firidun qızı
Şükürova Sənubər Fəqani qızı
Talıblı İradə İbadulla qızı
Yusifova Cəmilə Rüstəm qızı
Zülfiyeva Sevil Vəli qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 oktyabr 2021-ci il*

# Azərbaycan Respublikasının təhsil işçilərinə "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə aşağıdakı təhsil işçilərinə "Əməkdar müəllim" fəxri adı verilsin:

Abbaslı Aybəniz Ərzuman qızı
Abbasova İlhamiyyə Ələddin qızı
Abbasova Kəmalə Əli qızı
Abdullayev Mirtahir Həsənağa oğlu
Abdurazaqov Rasim Rəşid oğlu
Abdurəhmanov Elşad Nərman oğlu
Ağayeva Məlahət İmran qızı
Allahverdiyev Aydın Çingiz oğlu
Aşımova Afət Nazim qızı
Aydın Könül Nadir qızı
Bayramova Səidə Mirbaba qızı
Cəbrayılov İntiqam Hilal oğlu
Cəfərova Məlahət Süleyman qızı
Cəlalova İradə Səttar qızı
Dadaşova Gülnaz Nəsib qızı
Dibirova Nəcibə Müslüm qızı
Əfəndiyeva Afət Nurməmməd qızı
Əliyev Nurəddin Qəhrəman oğlu
Əliyev Rüfət Nahid oğlu
Əliyeva Aynurə İldırım qızı
Əliyeva İradə Sabir qızı
Əliyeva Zəhra İsa qızı
Əlizadə Sahir Əlisa oğlu
Əsgərova Nəzakət Arif qızı
Əsgərova Zenfira Sabir qızı
Fərzəliyeva Fazilə Fərzəli qızı
Fətəliyeva Mehriban Ağa qızı
Hacılı Sona Qənbər qızı
Həmzəyeva Almayə Abbas qızı
Həsənov Nazim Yaqub oğlu
Həsənova Vəfa Əflatun qızı
Hüseynova Elmira Əsəd qızı
İbrahimov Saməddin Həsən oğlu
İbrahimova Hüsniyyə Bəhlul qızı
İbrahimova Şahnaz İbrahim qızı
İbrahimova Yeganə Ağali qızı
İsgəndərov Yaşar Çoban oğlu
İsmayılov Mərdan Rəhim oğlu
İsmayılova Nazlı Zəkəriyyə qızı
İsrayılova Gülzar Əvəz qızı
Kərəmli Aminə Kərəm qızı
Qarayev Mehralı Rəşid oğlu
Qasımova Rubiynə Elton qızı
Qədəşova Mətanət Müracəb qızı
Qəniyeva Kəmalə Əli qızı
Quliyeva Aytən Qəhrəman qızı
Quliyeva Fatmaxanım Ələkbər qızı
Quliyeva Gülarə Qoca qızı
Quliyeva Gülnarə Xuduş qızı
Quliyeva Qıztamam Əliağa qızı
Qurbanov Saleh Cümşüd oğlu
Manafov Əsgər Əmirxan oğlu
Məhərrəmova Adilə Adil qızı
Məmmədov İlham Allahverdi oğlu
Məmmədova Ceyran Məmmədalı qızı
Məmmədova Gülnarə Saleh qızı
Məsimova Elza Adil qızı
Mirzəliyeva Emiliya Abdulla qızı
Mövsümova Fəridə Əlihüseyn qızı
Muradova Rəna Səməd qızı
Musayev Vəli Cənnət oğlu
Mustafayeva Gültəkin Rafiq qızı
Nağıyeva İradə İsa qızı
Nəsibova Zareta Almas qızı
Rəhimova Şəhla Məmmədqasım qızı
Rüstəmov Akif Şahverdi oğlu
Semyonova Yuliya Genadiyevna
Səmədov Fəxrəddin Salman oğlu
Süleymanova Səadət Yunis qızı
Yolçuyeva Nüşabə Qərib qızı
Zayıdova Maral Zakir qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 oktyabr 2021-ci il*

# Tədris ili öz uğurları

**Sentyabrın 29-da təhsil naziri Emin Əmrullayev AzTV-nin "Hədəf" verilişində qonaq olub. Verilişdə təhsil naziri ilə cari tədris ilindən gözləntilər, təhsil işçilərinin vaksinasiyası, tələbə kreditləri və hər kəsi maraqlandıran digər suallar ətrafında söhbət aparılıb.**




## Emin Əmrullayev: "Məktəbin Zəfərə gedən yolda rolu nədən ibarət olub: şagird və tələbələrimizə bunu çatdıracağıq"

### Davamlı və keyfiyyətli tədrisi təşkil edəcəyik

*- Həyatımızda elə sahələr var ki, orada düz xəttlə hərəkət eləmək özünü doğrultmur. Çünki vaxt keçdikcə standartlar, tələblər, yeni çağırışlar üzə çıxır və istər-istəməz onlara adekvat cavablar tapılmalıdır. Çünki inkişaf meyillərinin qarşısını almaq olmaz, əksinə inkişaf özü öz mövqeyini diktə edir. Belə sahələrdən biri təhsildir.Bütün dünyada bu istiqamətdə daim axtarışlar gedir, çünki keyfiyyət göstəriciləri durmadan yüksəlir. Təbii ki, ölkəmiz bu prosesdən geri qala bilməz. Bunun üçün də Təhsil Nazirliyi və onun partnyorları axtarışlar aparır, yeni modelləri sınaqdan keçirirlər. Yeni dərs ili başlayıb. Hesabat vaxtı deyil, indi doğru fikirləri toparlamaq lazımdır. Bunlardan danışmaq üçün "Hədəf"in studiyasına təhsil naziri Emin Əmrullayevi dəvət etmişik. İlk növbədə gözləntilərdən danışmalıyıq. Çünki yeni dərs ili bilavasitə ənənəvi sistemə qayıdışla bağlıdır. İstərdim ki, ilk növbədə öz gözləntiləriniz, planlarınız barədə məlumat verəsiniz.*

- Bildiyiniz kimi, çox uzun müddətdən, yəni ötən ilin mart ayından bəri müxtəlif formalarda tədris təşkil edilir. Bu il sentyabrın 22-dən və müvafiq qaydada sentyabrın 29-dan tədrisin əyani formada təşkili məqsədəmüvafiq hesab edilib. Pandemiyanın bu mərhələsində dayanıqlı və davamlı təhsili təşkil edəcəyimizə ümid edirik. Amma əvvəldən də deyildiyi kimi, bu, yalnız Təhsil Nazirliyinin, təhsil müəssisələrinin deyil, bütün cəmiyyətin, geniş anlamda hər birimizin sosial məsuliyyəti məsələsidir. İnandığımız ondan ibarətdir ki, əvvəlki mərhələlərdə olduğu kimi, bu mərhələdə də istər təhsilalanlar, istər təhsilverənlər, istərsə də geniş ictimaiyyət, valideynlər qarşıya qoyulan çağırışlara cavab verə biləcək, davamlı və keyfiyyətli tədrisi təşkil edəcəyik. Bu tədris ili mahiyyəti baxımından bir neçə məqama görə fərqlənir. Birinci növbədə onu qeyd etməliyik ki, Azərbaycan təhsil müəssisələri ölkəmizin ərazi bütövlüyünün təmin olunduğu bir şəraitdə ilk dəfə dərs ilinə başlayır. Bu, istər ideoloji, istər milli özünüdərk, istər tərbiyə prosesinin təşkili, istərsə də, ölkəmizin qarşısında duran yeni çağırışlara cavab baxımından çox önəmlidir. İndiyə qədərki tədris illərində təhsilin məzmunu həm Qarabağ, həm ərazi bütövlüyü mövzusu əsasında qurulurdusa, zəfərdən sonrakı dönəmdə bu, sadəcə siyasi-ideoloji, milli kimlik deyil, həm də iqtisadi məsələlərlə bağlı olacaq. Təhsilin keyfiyyəti isə digər vacib məsələdir ki, daim gündəmizdədir.

Baş verən hadisələr öz əhəmiyyətinə, tarixi miqyasına görə Azərbaycan tarixində özünəməxsus, əvvəlkilərlə müqayisəedilməz dərəcədə böyük hadisələrdir. Odur ki, tədrisin məzmununu, dərslikləri dəyişmək üçün daha böyük vaxta ehtiyacımız var. Bununla belə, bu dərs ili zəferimizə, ilk dərslər "Qarabağ Azərbaycandır" mövzusuna həsr olunub. Bu istiqamətdə işimizi iki yerə bölmüşük. Birinci, səviyyəsindən asılı olmayaraq, bütün təhsil müəssisələrində müxtəlif tədbirlər planlaşdırılıb. Tədbirlərin əsas məqsədi təbliğat, təhsil müəssisəsinin yerləşdiyi əraziyə uyğun tərbiyə işinin təşkilidir. Həmin yerin, məktəbin zəfərə gedən yolda rolu nədən ibarət olub - şagird və tələbələrimizə bunu çatdıracağıq. Məlumdur ki, zəfər xalqın birliyi, uzun illər ərzində görülən işin nəticəsi olaraq qazanılıb. Ona görə də təbliğatımız məhz bu yola nəzər salmaq, nəzər salarkən də hər məktəbin, hər kəndin, qəsəbənin, hətta hər fərdin zəfər yolunda verdiyi töhfələrə diqqət çəkməkdir. Məsələn, builki ən böyük tədbirlərimizdən biri Zəfər tariximizə həsr olunan inşa müsabiqəsidir. Bütün ölkə məktəblilərini əhatə edən müsabiqə çərçivəsində məktəblilərimiz bu tarixi hadisəylə bağlı öz fikirlərini paylaşıb və qaliblər Zəfər Günü ərəfəsində elan ediləcək. Bundan başqa, məktəblərdə dərsdənkənar məşğələ formatında "Zəfər tarixi" kursunu təqdim edəcəyik. Xüsusi qeyd edim ki, bu, kursdur, fənn deyil. Kurs üçün materiallar hazırlanır və yaxın həftələrdə tamamlanaraq məktəblərə çatdırılacaq. "Zəfər tarixi" kursu hər bir yerin kontekstinə uyğun təşkil edildiyindən bu kursu tədris edən müəllimlərimiz də müxtəlif mənbələrdən istifadə edə biləcəklər...

*- Bir də ki, zəfər salnaməsi hələ zaman-zaman yazılacaq...*

- Ona görə də hər il kursun məzmunu dəyişəcək və əsas resursu dərslik olmayacaq. Çünki zəfərdən sonrakı dövr bərpa dövrüdür, qayıdış, regional inkişafla bağlıdır. Cənab Prezidentin göstərişi ilə, demək olar ki, hər həftə, hər ay bu istiqamətdə böyük işlər görülür. Nəticədə uşaqlarımızın, tələbələrimizin qarşısında geniş üfüq açılıb ki, "Zəfər tarixi" kursunun əsas mahiyyətini də məhz bu təşkil edir. Bu kurs kimya, fizika, riyaziyyatdan fərqli olaraq dəyişən tədris materialları əsasında keçiləcək. Tədris ili ərzində hətta elə məsələlər olacaq ki, müəllim onu mətbuat və başqa mənbələrdən toplanan materiallar əsasında şagird və tələbələrə çatdıracaq.

### Situasiyanı nəzarətdə saxlayır, düzgün qərarların verilməsinə çalışırıq

*- Pandemiya dövrüdür, vaksinasiya davam edir. Müəllim klasterində bu vəziyyəti necə dəyərləndirirsiniz və sizcə, bunun sonu görünür, yoxsa yox?*

- Təbii ki, pandemiya bitməyib. Pandemiyanın bitməsi üçün vaksinasiya ən qısa yoldur. Tədris ilinin ləngimə ilə başlaması da məhz bu səbəbdən idi. Hesablamalarımız göstərirdi ki, oktyabrın əvvəllərində 4 milyon insan hər iki dozada peyvənd olacaq. Bu, kifayət qədər böyük rəqəmdir. Fürsətdən istifadə edib prosesdə aktiv iştirak edən hər bir vətəndaşımıza minnətdarlığımı bildirirəm. O cümlədən müəllimlərimizə təşəkkür edirəm. Bilirsiniz ki, təhsil işçilərinin 90 faizindən çoxu artıq vaksin olunub. Sertifikatı, əks göstərişi olanlar var ki, vaksinasiyadan keçmələri mümkün deyil.Müəllimlərimizin çox az qismilə maarifləndirmə işi davam edir. Təbii ki, qeyri-müəyyənliklər var, Təhsil Nazirliyi olaraq situasiyanı nəzarətdə saxlayır, düzgün qərarların verilməsinə çalışırıq.

### İnnovativ layihələr öz coğrafiyasını və əhatəliliyini genişləndirib

*- Təhsil elə bir sahədir ki, mütərəqqi üsulların təşəbbüskarı kimi çıxış edir. STEAM, "Rəqəmsal bacarıqlar" kimi bir neçə innovativ layihələr həyata keçirilir. Belə layihələrin gələcəyini necə təsəvvür edirsiniz?*

- Bu tədris ilində orta ümumtəhsil, peşə və ali təhsil müəssisələrində məzmun baxımından xeylı dəyişikliklər var. Qısa olaraq onu qeyd edə bilərəm ki, orta ümumtəhsil müəssisələrində cəmi bir neçə min şagirdlə başlayan "Rəqəmsal bacarıqlar" layihəsi bu ildən öz coğrafiyasını genişləndirib. Artıq layihə ölkəmizin daha böyük ərazisində 190 minə yaxın şagirdi əhatə edir. STEAM layihəsi 2 il əvvəl cəmi 6500 şagirdlə başlamışdı, artıq 301 məktəbdə 100 mindən artıq şagirdlə davam edir. Üstəlik, coğrafiyası genişlənib. Layihəni bu ildən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə ölkəmizin 15 bölgəsində yaradılan STEAM mərkəzlərində müxtəlif bölgələrdən, hətta ucqar kəndlərdən də olan uşaqları cəlb etməklə davam etdiririk. Hələlik bu il Şirvanda, Gəncədə, İsmayıllıda, Sabirabadda, Ağdaşda, Bərdədə, Qubada fəaliyyət göstərən mərkəzlər prosesə qoşulub. Növbəti illərdə daha çox bölgədən olan şagirdlərimizi də cəlb etməyə çalışacağıq ki, onlar da prosesdən kənarda qalmasın.

İcmaəsaslı məktəbəqədər layihəmiz 15 mindən artıq usağı əhatə edir. Bu layihə çərçivəsində ucqar kəndlərdə olan məktəblərdə ümumilikdə 777 iş yeri yaradılıb ki, onların hamısında həmin kəndlərdə yaşayan qadınlar işə cəlb edilib.

Peşə təhsilində də bu il bir neçə layihə həyata keçiririk. Xüsusən, yüksək texniki peşə təhsili verən ixtisaslarımıza qəbul artıb.

Bu il azərbaycanlı məktəblilər beynəlxalq olimpiadalarda yüksək nəticələr göstəriblər. Təhsil sistemində həyata keçirilən innovativ layihələr öz coğrafiyasını və əhatəliliyini genişləndirib.

### Hesab edirik ki, imtahan prosesini müəllimlər üçün rahat edək

*- Bütün bunlar ümidverici və ürəkaçan yeniliklərdir. Emin müəllim, müəllimlərin işə qəbulu daim gündəliyinizdə olan və önəm verdiyiniz məsələlərdəndir. Hətta bunun ağrılı çaları da var. Çünki bir tərəfdən güclü rəqabət var, digər tərəfdən metodologiyanı təkmilləşdirməyi qarşınıza məqsəd qoymusunuz. Prosesi necə dəyərləndirirsiniz?*

- Prosesi yaxından izləyirəm və müəyyən mənada narazı qalanların olmasını başa düşürəm. Amma istərdim ki, məsələlərə obyektiv baxaq. Bunun üçün də rəqəmlərə, statistikaya əsaslanmağın daha doğru olduğunu düşünürəm. Çünki emosiyalar aldadıcı ola bilər. Hər kəsin emosional duyğularını da anlayıram, ancaq istərdik ki, bu, qarşılıqlı olsun, Təhsil Nazirliyinin də mövqeyi nəzərə alınsın. Azərbaycan təhsil sistemində təxminən 150 min nəfər müəllim işləyir. Bir müəllimin orta hesabla 25-30 il fəaliyyət göstərdiyini nəzərə alsaq, hər il təxminən 5-6 min civarında vakant yer çıxa bilər. Hər il bəlli sayda, əsasən ucqar kəndlərdə olan ümumilikdə 1000-2000 vakant yer tutulmur. Bu həqiqət heç vaxt dəyişmir. Təxminən 150 min iş yeri olan sistemdə il ərzində 5-6 min vakant yeri ola bilər. Təhsil Nazirliyindən 15 min yer gözləmək qeyri-realdır. Məsələnin ikinci tərəfi müəllim hazırlığı ilə bağlıdır. Bu sual verilir ki, yer yoxdursa, niyə bu qədər müəllim hazırlayırıq.

⇨Ardı səh.5

# ilə yadda qalacaq

⇦ Əvvəli səh.4

Hər il 6000 civarında müəllim, 4400 məktəbdə məktəb direktorları, direktor müavinləri, laborant, uşaq birliyi rəhbəri, digər pedaqoji işlər üçün kadrlar tələb olunur ki, onları da nəzərə alanda vakant yer sayı il ərzində 8-9 minə gəlib çıxır. Fikrimcə, bu da böyük saydır. Ali, orta ixtisas və peşə təhsili müəssisələrində, özəl təhsil müəssisələri və özəl kurslarda da pedaqoji ixtisaslar üzrə ali təhsil müəssisələrini bitirənlər işləyir. Biz birə-bir nisbətində yox, rəqabət yaratmaq üçün bir qədər artıq plan yeri müəyyənləşdiririk. Tutaq ki, gənc qadınlar öz evlərinə yaxın iş yerlərinə üstünlük verirlər. Amma Bakının mərkəzində təxminən 100 məktəb var. Hər birində orta hesabla 10 riyaziyyat müəllimi varsa, orta hesabla 1000 iş yerindən danışırıq ki, məzunların hamısını Bakının mərkəzi rayonlarında yerləşdirməyə fiziki imkanımız yoxdur. Azərbaycanın bölgələrində təhsil alan şagirdlərimizi də keyfiyyətli müəllimlərlə təmin etməliyik. Təbii ki, burada bir çox miras qalmış məsələlər də var. Düşünürəm ki, o məsələlərə də indi toxunsaq, çox dərinə getmiş olarıq. Ancaq müəllimlərin haqlı olduğu bəzi məsələlərdə dəyişikliklər etməyi düşünürük. Hesab edirik ki, imtahan prosesini müəllimlər üçün rahat edək. Məqsədimiz dəyişmir - 6000 nəfər ən yüksək nəticə göstərən adamı axtarırıq. Bu nəticəni göstərməsi üçün daha çox namizədə imkan yaratmağa hazırıq. İctimaiyyəti bu prosesə yaxından cəlb etməyə hazırıq. Düşüncəmiz bundan ibarətdir ki, üçüncü tərəfin iştirakı prosesdə şəffaflığı daha da artıracaqsa, biz bunu edəcəyik. Başqa bir məsələ. Vakansiyaların gizlədilməsi ilə bağlı fikirlər səsləndirilir. Bu məsələdə ictimaiyyət bizə kömək etməlidir. Biz bildiyimiz bütün vakansiyaları çıxarırıq və riyazi məntiqlə vakansiyalarla müəllim sayı arasında ümumən qanunauyğunluq görürük. Hətta bir az da irəli gedib hər məktəbdə müxtəlif fənlər üzrə nə qədər müəllimin işlədiyini, neçə saat dərs olduğunu da ictimailəşdirəcəyik. Biz heç nəyi gizlətmirik. İstəyirik hər şey şəffaf olsun. Müəyyən bir keçmiş var və biz bunu dana bilmərik. Keçmişdə verilən bəzi qərarlar bu gün düz görünməyə bilər, amma bir məktəbdə 33 saat və 10 müəllim varsa, həmin məktəbə 11-ci müəllimi götürmək qeyri-mümkündür. Bu rəqəmləri, statistikanı ictimaiyyətə, hər maraqlanan tərəfə, imtahan verməyə hazırlaşanlara, bir sözlə, ictimaiyyətin istənilən nümayəndəsi üçün əlçatan edəcəyik. İstəyirik bu problemlərə birlikdə baxaq. Bu, bir tərəfin digər tərəfi qınaması formatında olmasın. Oturub problemlərimizi birgə əməkdaşlıqla həll edək.

## Yeni məktəblər ən müasir tələblər səviyyəsində olacaq

*- Cənab nazir, infrastrukturun yenilənməsi ölkəmizdə çox aktualdır. Biz bilirik ki, dövlət rəhbəri bu məsələyə böyük diqqət ayırır. Bu il azad olunmuş torpaqlarımızda da infrastrukturun yenidən qurulması məsələsi gündəmdədir. Sizin üçün təxirəsalınmaz görünən məsələlər nədən ibarətdir?*

- Xüsusi qeyd edilməlidir ki, son illərdə minlərlə məktəb ya təmir olunub, ya da yenidən tikilib. Bu il də 88 belə məktəb var. Prezident İlham Əliyev və birinci xanım, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə məktəb açılışları oldu. Bu, ölkəmizdə təhsilə verilən yüksək qiymətin bariz nümunəsidir. Ümumilikdə başa düşürük ki, bəzi kəndlərimizdə, bölgələrimizdə təmirsiz məktəblər qalır.İnfrastrukturun inkişafı ilə bağlı işlər davam etdirilməlidir və etdirilir. Sadəcə burada zaman, resurs məsələsi nəzərə alınmalıdır. Bununla bağlı müvafiq işlər görüləcək. Şuşa məktəbinin layihələndirmə işi bitib, tikinti prosesi başlayacaq və növbəti ilin sonuna qədər məktəb istifadəyə yararlı vəziyyətdə olacaq. Ağdam rayonunda da 1 nömrəli məktəbin tikilməsi ilə bağlı cənab Prezidentin müvafiq sərəncamı var. Bundan başqa, işğaldan azad olunan digər bölgələrdə də tikiləcək məktəblərin sayı müəyyənləşdirilir. Bu və ümumilikdə qayıdış prosesi özlüyündə ciddi logistik prosesdir. Bütün bölgələrimizdə olan soydaşlarımızın öz torpaqlarına qayıtması prosesinin proqnozlaşdırılması istiqamətində işlərimiz, demək olar ki, tamamlanıb. Həmin bölgələrdə yaradılacaq məktəblər ən müasir tələblər səviyyəsində olacaq. Bu tələb qarşımıza ölkə rəhbərliyi tərəfindən qoyulub. Yüksək standartları aşağı salmadan həmin təhsil müəssisələrini təhsilalanların üzünə aça biləcəyik.









## Kredit bir məcburiyyət yox, imkandır

*- Tələbələr artıq auditoriyalardadır. Onların əsas qayğılarından biri tələbə kreditlərinin verilməsidir. Bu sahədə vəziyyəti necə dəyərləndirirsiniz?*

- Azərbaycanda tələbə kreditlərinin verilməsi ilə bağlı Tələbə Kredit Fondu ötən yay tətili ərzində bir çox işlər görüb. Nizamnamə fondu təsdiq olunub. Hazırda fondun nizamnamə kapitalı 80 milyon manatdır. Sistem oktyabrda işə düşəcək. Tamamilə elektron olan sistem digər sistemlərə inteqrasiya olunub. Ona görə də həssas qruplara aid ailələrin övladları rahat şəkildə sosial kredit alacaq. Digər tələbələr isə standart kreditlər götürəcək. Sistem tamamilə şəffafdır: tələbələr FİN nömrələrini daxil edərək sistemə qoşulacaq, inteqrasiya olunmuş sistemlərdən tələbə, onun ailəsi ilə bağlı lazım olan məlumatlar toplanılır. Əgər ailədə əlilliyi olan şəxs varsa, ünvanlı sosial yardım alırlarsa, bu halda tələbə sosial kredit, digər hallarda isə standart kredit ala biləcək. Bütün bu proses, sadəcə bir neçə saniyə ərzində baş verəcək. Müvəkkil banklar tərəfindən həyata keçirilən proses nəticəsində 40 minə yaxın tələbəyə kredit vermək mümkün olacaq. Kredit bir məcburiyyət yox, imkandır. Ötən illə müqayisədə bu il bu imkan yaradılıb. Əgər tələbə müraciət edərsə, ona kredit veriləcək. Bu, məcburi bir şey deyil, imkandır. Kimsə tələbə krediti mütləq almalıdır, demir. Amma tələbənin təhsilini maliyyələşdirmək imkanı yoxdursa, onda tələbə kreditinə müraciət edə bilər. Kreditlər uzunmüddətlidir, sosial xarakter daşıyır. Orada bir neçə güzəşt də nəzərdə tutulub. Əgər yaxşı oxuyurlarsa, onlara faiz və ya əsas hissədə güzəşt edilir. Kreditini təhsil aldığı müddətdə ləğv etdirmək imkanı isə tələbəyə oxumaq, savadlı olmaq, ixtisasa yiyələnmək, gələcəkdə ölkəmizin inkişafına töhfə vermək üçün stimul verir.

*- Bəli, onlar üçün imkanlar genişlənir, imtiyazlardan istifadə edib gözləntiləri doğrultsunlar. Nazirlik, sizin başçılığınız altında müəllim ordusu əlindən gələni edir ki, müvafiq tərzdə inkişaf getsin, digər ölkələrin vəziyyətinə həsrətlə baxmayaq. Təşəkkür edirik proqramımızda iştirak etdiyiniz üçün.*

- Çox sağ olun. Mən də təhsil ictimaiyyətini tədris ilinin başlanması münasibətilə təbrik edirəm. Ümid edirəm ki, bu tədris ili öz uğurları ilə yadda qalacaq.

## Təhsil Nazirliyində görüş keçirilib

Oktyabrın 1-də təhsil naziri Emin Əmrullayev BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyinin yeni rəhbəri Aleks Haykens ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikası ilə BMT-nin Uşaq Fondu (UNICEF) arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və mümkün əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

## Təhsil nazirinin videoqəbulu

Oktyabrın 1-də təhsil naziri Emin Əmrullayev Ağdaş, Ucar, Zərdab, Kürdəmir, Göyçay, İsmayıllı, Şamaxı və Ağsu rayon sakinlərini videobağlantı vasitəsilə qəbul edib. Qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil naziri vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Videoqəbulda vətəndaşlar əsasən müəllimlərin yerdəyişməsi, işlə təmin olunma, dərs saatlarının artırılması, xarici diplomların tanınması kimi məsələlərlə bağlı müraciətlər ediblər.

Qeyd edək ki, videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanının yaradılmasıdır.

## İnsan resursları mərkəzinin yeni "Çağrı xidməti"

Vətəndaşlara daha operativ və keyfiyyətli xidmət göstərilməsi üçün İnsan resursları mərkəzinin yeni "Çağrı xidməti" (146-5) istifadəyə verilib. Mərkəzlə əlaqə saxlamaq üçün vətəndaşlar Təhsil Nazirliyinin 146 nömrəsinə zəng edərək müvafiq dil seçdikdən sonra 5 düyməsini sıxmalıdırlar.

"Çağrı xidməti" vasitəsilə vətəndaşlar İnsan resursları mərkəzinin fəaliyyət istiqamətlərinə uyğun sual və müraciətləri ünvanlaya, ətraflı məlumat əldə edə bilərlər:

Qeyd edək ki, Mərkəzin "Çağrı xidməti" həftəiçi beş gün (bazar ertəsi — cümə günləri) saat 09:00-dan 18:00-dək xidmət göstərəcək. Vətəndaşların müraciətləri artıq (012) 430-52-78 nömrəsi vasitəsi ilə deyil, 146-5 xətti vasitəsi ilə qəbul olunacaq.

## SABAH qruplarına 108 yeni müəllim seçilib

11 ali təhsil müəssisəsini əhatə edən SABAH qruplarına, eləcə də SABAH qrupları layihəsi modeli çərçivəsində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) xüsusi pilot qrupuna 2021-2022-ci tədris ili üçün professor-müəllim heyətinin seçimi başa çatıb. Müəllim seçimi mərkəzləşdirilmiş qaydada iki mərhələdən (təqdim olunmuş sənədlər əsasında ilkin qiymətləndirmə və müsahibə) ibarət olmaqla müsabiqə yolu ilə həyata keçirilib.

Müsabiqədə iştirak üçün 117 vakant fənn üzrə 899 müraciət daxil olub. Müraciət edənlərdən 380 nəfəri müsahibə mərhələsinə keçib.

13 və 15 iyul tarixlərində keçirilən müsahibə zamanı 6 ixtisas istiqaməti (humanitar-sosial, təhsil və dil, iqtisadiyyat və idarəetmə, təbiət, texniki və texnoloji, idman) üzrə komissiyalar təşkil olunub. SABAH qruplarına yeni tədris ili üçün müəllim seçimi müsabiqəsindən 108 yeni müəllim seçilib və müvafiq ali təhsil müəssisələrində tədrisə başlayıb.

# Bakı Musiqi Akademiyasının əməkdaşlarına dövlət təltifləri təqdim edilib



Oktyabrın 1-də Təhsil Nazirliyində Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə Azərbaycanda musiqi təhsilinin inkişafında xidmətlərinə görə bu təhsil müəssisəsinin təltif olunan əməkdaşlarına dövlət təltiflərinin təqdimetmə mərasimi keçirilib.

Mərasimdə çıxış edən təhsil naziri Emin Əmrullayev Akademiyanın ölkəmizdə musiqi mədəniyyəti və tarixinin tanıdılması sahəsində müstəsna xidmətlərinə toxunub. Nazir sözügedən təhsil müəssisəsinin hazırda da mədəniyyət və incəsənətin inkişafı, peşəkar musiqiçilərin hazırlanması işinə töhfə verməkdə davam etdiyini vurğulayıb.

Təhsil naziri sonda Akademiyanın əməkdaşlarına gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra təhsil müəssisəsinin əməkdaşlarına dövlət təltifləri təqdim olunub.

# Təhsil naziri olimpiada qalibləri ilə görüşüb

Ötən tədris ilində məktəblilərimiz müxtəlif miqyaslı olimpiadalardan 53 medal qazanıblar



Oktyabrın 2-də təhsil naziri Emin Əmrullayevin iştirakı ilə 2020-2021-ci tədris ili üzrə beynəlxalq fənn olimpiada qalibləri ilə görüş keçirilib. Görüşdə 24 nəfər beynəlxalq fənn olimpiada qalibi və olimpiadalara hazırlıq komandalarının rəhbərləri iştirak edib.

Görüşdə çıxış edən təhsil naziri Emin Əmrullayev olimpiada hərəkatının özvü olan hər bir gəncin gələcəkdə ölkənin ən yaxşı mütəxəssisinə çevriləcəyinə inamını ifadə edib. Nazir bildirib ki, xüsusi istedadlı gənclər onlarda olan bacarığı düzgün istiqamətləndirməyi bacarmalıdır.

Çıxışının sonunda qalibləri bir daha təbrik edən təhsil naziri onlara uğurlar arzulayıb.

Daha sonra olimpiada qaliblərinə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, ötən tədris ilində məktəblilərimiz müxtəlif yaş qrupları üzrə müxtəlif miqyaslı olimpiadalardan ümumilikdə 53 medal — 6 qızıl, 15 gümüş, 32 bürünc, 10 həvəsləndirici mükafat qazanıblar.

# 2021-2022-ci tədris ili üzrə 724 SABAH tələbəsi




Ölkənin 11 ali təhsil müəssisəsini əhatə edən SABAH qruplarına, eləcə də SABAH qrupları layihəsi modeli çərçivəsində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) xüsusi pilot qrupuna qəbul üçün iyun-avqust aylarında 2021-2022-ci tədris ili üzrə tələbə seçimi aparılıb. Sözügedən qruplara tələbə seçimi mərkəzləşdirilmiş qaydada üç mərhələdən (akademik göstəricilərin qiymətləndirilməsi, test imtahanı və müsahibə) ibarət olmaqla müsabiqə yolu ilə həyata keçirilir.

Müsabiqədə iştirak üçün ümumilikdə 1746 tələbə müraciət edib, onlardan 1690 nəfəri test imtahanı mərhələsində iştirak hüququ qazanıb. Dövlət İmtahan Mərkəzi tərəfindən iyul ayında pandemiya şəraitinin tələblərinə uyğun keçirilmiş imtahanda 1404 tələbə iştirak edib. 35 ixtisas üzrə test imtahanı mərhələsini uğurla keçən 1059 tələbə üçün onlayn müsahibə təşkil edilib. Müsabiqənin nəticələrinə əsasən, 724 tələbə 29 ixtisas üzrə SABAH tələbəsi adını qazanıb. ADBTİA xüsusi pilot qrupuna isə 2 ixtisas üzrə 30 tələbə qəbul olub.

Qeyd edək ki, 2021-2022-ci tədris ili üçün SABAH qruplarında yeni ixtisaslar açılıb.

# "SABAH Magistratura" və ikili diplom proqramlarına qəbul olunan tələbələrlə görüş





Oktyabrın 4-də Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) və Təhsil İnstitutu (ARTİ) tərəfindən ali təhsilin magistratura səviyyəsi üçün həyata keçirilən "SABAH Magistratura" proqramı və ADPU ilə ABŞ-ın Corc Vaşinqton Universiteti arasında icra edilən ikili diplom proqramına 2021-2022-ci tədris ili üzrə qəbul olunan tələbələrlə görüş keçirilib.

Görüşdə təhsil naziri Emin Əmrullayev, ADPU-nun rektoru Cəfər Cəfərov və digər qonaqlar iştirak ediblər.

Tədbirdə giriş nitqi ilə çıxış edən ADPU-nun rektoru Cəfər Cəfərov tədbir iştirakçılarına rəhbərlik etdiyi təhsil müəssisəsinin fəaliyyəti, yeniliklər və proqramlar haqqında ətraflı məlumat verib.

**Hər iki proqramın məqsədi sürətli şəkildə kadr hazırlığıdır və hər bir təhsilalana keyfiyyətli təhsil verməkdir**

Təhsil naziri Emin Əmrullayev görüşün məqsədinin beynəlxalq ikili diplom proqramı və "SABAH Magistratura" proqramından gözləntilərin müzakirəsi olduğunu bildirib. Yeni tədris ilinin ötən illərdən fərqli olduğunu vurğulayan Emin Əmrullayev deyib ki, qeyd olunan ikili diplom və "SABAH Magistratura" proqramı, o cümlədən "SABAH qrupları" layihəsinin Azərbaycan təhsilində özünəməxsus yeri var və bu proqramlar sürətli şəkildə kadr hazırlığı, hər bir təhsilalana keyfiyyətli təhsil vermək məqsədi daşıyır.

Görüşün sonunda tələbələrin sualları cavablandırılıb.

## İctimai Şuraya seçkilərin tarixi məlum olub

Təhsil Nazirliyi yanında İctimai Şuraya seçkilərin təşkili ilə bağlı Seçki Komissiyasının iclası keçirilib.

İclasda iştirak edən təhsil nazirinin müavini Firudin Qurbanov İctimai Şuranın əhəmiyyətindən, nazirliyin fəaliyyətinə verəcəyi dəstəkdən və Şuranın işinin təkmilləşdirilməsi meyarlarından danışıb. Nazir müavini Şuranın təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı rəy və təkliflərin hazırlanması, normativ hüquqi aktların ictimai təhlilinin həyata keçirilməsi işində yaxından iştirakının əhəmiyyətini bildirib.

İclasda iştirak edən digər Komissiya üzvləri də öz növbəsində təkliflər irəli sürüblər.

İclasda bildirilib ki, Şuraya üzv olmaq istəyən namizədlər tələb olunan sənədləri elektron qaydada təqdim etməlidirlər. Sənədlər *shura@edu.gov.az* poçt ünvanına göndərilməlidir. Qeydiyyat üçün sənədlər 1 oktyabr 2021-ci il tarixindən etibarən qəbul edilir. Sənədlərin qəbulu müddəti 28 oktyabr 2021-ci il tarixində başa çatacaq.

Qeyd edək ki, Təhsil Nazirliyi yanında İctimai Şura 2019-cu ilin sentyabr ayında yaradılıb. Şuranın yaradılmasında əsas məqsəd nazirliyin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, görülən işlərdə aşkarlığın və şəffaflığın təmin edilməsi, eyni zamanda təhsil sahəsində ictimaiyyətlə qarşılıqlı fəaliyyətin gücləndirilməsi olub.

Ətraflı məlumatı aşağıda təqdim olunan elan *(https://edu.gov.az/az/announcements/tehsil-nazirliyi-yaninda-ictimai-suraya-uzvluye-namizedlere-secicilere-dair-telebler-ve-onlarin-qeydiyyati-barede-elan)* vasitəsilə əldə edə bilərsiniz.

## İctimaiyyətlə əlaqələrə məsul şəxslər üçün təlim-seminar

Oktyabrın 1-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə yerli təhsil idarəetmə qurumlarının ictimaiyyətlə əlaqələrə məsul şəxsləri üçün onlayn təlim-seminar keçirilib.

Məqsəd regionlarda ictimaiyyətlə əlaqələrə dair iş keyfiyyətinin artırılması, ictimaiyyətlə əlaqələr üzrə məsul şəxslərin peşə bacarıqlarının daha da inkişaf etdirilməsindən ibarətdir.

Təlim-seminar çərçivəsində rayon (şəhər) təhsil şöbələrinin (idarələrinin) rəsmi internet saytının və sosial şəbəkələrdəki səhifələrinin idarə edilməsi, media ilə əlaqə, böhran vəziyyətlərində kommunikasiya, daxil olan sorğuların operativ cavablandırılması kimi mövzular ətrafında müzakirə aparılıb.

Təlim iştirakçıları mövzu istiqamətində fikir və təcrübələrini bölüşüb, təlimin faydalılığına toxunublar.

Sonra təlim iştirakçılarını maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

Qeyd edək ki, bu istiqamətdə təlimlərin mütəmadi təşkili nəzərdə tutulur.

## Təhsil işçiləri təltif edilib



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki məktəblərdə çalışan təhsil işçiləri 5 oktyabr-Beynəlxalq Müəllimlər Günü münasibətilə təltif edilib.

Tədbirdə BŞTİ-nin müdiri Mehriban Vəliyeva, idarənin müvafiq struktur bölmə rəhbərləri, BŞTİ-nin Həmkarlar İttifaqı Komitəsinin sədri, məktəb direktorları və müəllimlər iştirak ediblər.

Tədbir iştirakçılarını salamlayan BŞTİ-nin müdiri Mehriban Vəliyeva Beynəlxalq Müəllimlər Günü münasibətilə həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərini təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

İdarə müdiri ölkəmizdə təhsil işçilərinin sosial müdafiəsinin möhkəmləndirilməsi istiqamətində görülən işlərdən bəhs edib, müəllimlərin dövlətin hərtərəfli qayğısı ilə əhatə olunduğunu vurğulayıb. Bildirib ki, Prezident İlham Əliyevin təhsilə qayğını dövlət siyasətinin prioritetləri sırasına daxil etməsi ölkəmizin gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir.

BŞTİ müdiri M.Vəliyeva qeyd edib ki, dövlətin məktəbə, təhsilə, müəllimə göstərdiyi qayğının nəticəsidir ki, bu gün ali məktəblərə qəbul olunan gənclərimiz ixtisas seçimi zamanı müəllim peşəsinə daha böyük maraq göstərirlər.

Mərasimdə çıxış edənlər şərəfli peşə olduğu üçün müəllim adını daşıyanlara həmişə böyük hörmət və ehtiram göstərildiyini vurğulayıblar. Həmçinin onlara göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildirib, yaradılan geniş imkanlardan yüksək səviyyədə bəhrələnərək ölkəmizin gələcək inkişafı üçün Azərbaycana layiqli vətəndaşlar yetişdirmək yolunda səylə çalışacaqlarını ifadə ediblər.

Daha sonra uğurlarına və səmərəli fəaliyyətinə görə çalışmanın yaş həddinə çatmış əmək müqaviləsinə xitam verilmiş məktəb rəhbərlərinə, 2020-2021-ci tədris ilində olimpiada və müsabiqələrin nəticələrinə, fərqlənmə attestatları, qızıl və gümüş nişan alan şagirdlərin sayına görə seçilən məktəb direktorlarına, olimpiada mərkəzlərinə şagird hazırlığını təmin etmiş müəllimlərə BŞTİ tərəfindən Fəxri Fərman və hədiyyələr təqdim olunub.

Həmçinin 2021-ci ildə yubileyi olan məktəb rəhbərləri də BŞTİ-nin Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılıb.

## Daha 239 nəfərin diplomu tanınıb

Təhsildə Keyfiyyət Təminatı Agentliyi sentyabr ayı üçün tanınma üzrə müraciətlərin statistikasını açıqlayıb. Belə ki, sentyabr ayı üzrə 310 müraciətçinin 239-u barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 71 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.

Tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 30, təhsil ölkəsində tələb olunan minimal müddətin ödənilməməsi, həm də tədris dilinin qənaətbəxş olmaması səbəbi ilə 19, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 12, digər səbəblər üzrə 10 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Türkiyədən 101, Rusiyadan 80, Ukraynadan 61, Gürcüstandan 18, Böyük Britaniya və Şimali İrlandiya Krallığından 8, digər ölkələrdən isə 42 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, hüquqşünaslıq üzrə 37, iqtisadiyyat üzrə 28, tibb üzrə 22, biznesin idarə edilməsi üzrə 18, menecment üzrə 11 nəfər müraciətçi qeydə alınıb.

Qeyd edək ki, sənədlərə ortalama baxılma müddəti 22 gün təşkil edib.

Vətəndaşlar xarici ali təhsil ixtisaslarının tanınması üçün *www.taninma.az* keçidinə daxil ola bilərlər.

# Təhsildə yeni çağırışlar

**Oktyabrın 1-i Azərbaycanın təhsil tarixində çox əlamətdar hadisə ilə yadda qalıb. Belə ki, həmin gün keçirilən Təhsildə Yeni Çağırışlar II Beynəlxalq Forumu təhsil nazirinin və o cümlədən dünya şöhrətli spikerlərin çağırışları, əhatəliliyi, iştirakçı sayı, mötəbərliliyi, gündəmə çıxardığı məsələlərin aktuallığı baxımından çox yüksək qiymətləndirilə bilər.**

## Beynəlxalq Müəllimlər Gününə həsr olunan II Beynəlxalq Forumda dünya şöhrətli spikerlər Azərbaycan auditoriyası qarşısında çıxış ediblər






### Post-konflikt dövründə yeni imkanlar yaranıb

Forumda açılış nitqi ilə çıxış edən təhsil naziri Emin Əmrullayev forumun əhəmiyyətini yüksək qiymətləndirdirərək təşkilatçılara və spikerlərə təşəkkür edib, forumda müzakirə ediləcək məsələlərin Azərbaycan təhsilinə böyük töhfə olacağını vurğulayıb. Beynəlxalq Müəllimlər Günü münasibəti ilə müəllimlərə təbrikini çatdıran təhsil naziri fərqli ideyaların paylaşılmasının vacibliyinə toxunub.

Azərbaycanda təhsil prosesinin yeni reallıqlarla üzləşdiyini qeyd edən Emin Əmrullayev post-konflikt dövründə yeni imkanların yarandığını, indiki nəslin yaxşı təhsillə təmin olunması üçün imkanların genişləndiyini bildirib. Nazir eyni zamanda COVID-19 pandemiyasının təhsil prosesinə təsirlərindən də söz açıb. Yeni texnologiyalardan istifadəni müsbət hal kimi qiymətləndirib.

Təhsil naziri gələcək çağırışlardan danışarkən erkən uşaq inkişafı, təhsilin məzmunu, qara qızılın insan kapitalına çevrilməsi, tələbələrin sosial-emosional vəziyyəti, öyrənənlərin nailiyyətləri və rifahı məsələlərini xüsusi qeyd edib.

Emin Əmrullayev son 30 ildə Azərbaycanın bir ölkə olaraq keçdiyi müxtəlif mərhələlərin təhsilə də təsirsiz ötüşmədiyini bildirib. Nazir dünya miqyaslı spikerlərə erməni təcavüzü nəticəsində zərər dəymiş təhsil müəssisələri, həlak olan və yaralanan məktəblilər barədə məlumat verib.

Daha sonra Azərbaycanın 190 illik tarixi olan ilk dövlət məktəbi - Şuşa Realnı məktəbinin fonu qarşısından iştirakçıları salamlayan T-Network təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının koordinatoru Cəfər Mənsimi beynəlxalq forumun məqsədi və vəzifələri barədə məlumat verib. Bildirilib ki, Beynəlxalq Müəllimlər Gününə həsr olunan forum Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə qəbul olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i və sənədin "XXI əsrin tələblərinə uyğun təhsil" istiqamətini rəhbər tutur.

### Azərbaycan xalqının təşəbbüslərini alqışlayıram

Forumun dünya miqyaslı spikerlərindən Norsvest Universitetinin fəxri professoru, tədqiqatçı, yazıçı və bestseller müəllifi, dünyada "müasir marketinqin atası" kimi tanınan Filip Kotler ilk dəfə olaraq Azərbaycan auditoriyası qarşısında çıxış edib.

Dünyanı daha yaxşı bir yerə çevirmək üçün Azərbaycan xalqının təşəbbüslərini alqışladığını dilə gətirən Filip Kotler Azərbaycana xüsusi sevgisinin olduğunu bildirib. Təhsil naziri Emin Əmrullayevin çıxışının çox həyacanverici olduğunu vurğulayıb.

Dünya şöhrətli professor "Təhsilin inkişafında əsas məqamlar" barədə danışaraq müxtəlif öyrənmə üsullarına toxunub və bildirib ki, təcrübə, tətbiq vasitəsi ilə daha yaxşı mənimsəmə mümkündür. İnformasiyanın bol olduğu bir dövrdə şagirdlərə fərdi öyrənmək üçün yaxşı şərait yaratmaq, onları müstəqil tanımaq və şəxsi yanaşma önəmlidir. Lövhə qarşısında dərs deməyin kifayət etmədiyini bildirən professor əlavə edib ki, şagirdlərin fərdi ehtiyaclarının qarşılanması və onlara bələdçilik etmək vacibdir.

### Təhsil torpaqdan başlamalıdır

Türkiyədə və İtaliyada bestsellər müəllifi, yazıçı, psixoloq Azra Kohen isə davamlı inkişaf və özünükəşf barədə danışıb. Çıxışına "Dünyanı nə qədər tanıyırsınız?" sualı ilə başlayan yazıçı dünyanı başa düşməyin əhəmiyyətini xüsusi vurğulayıb, yaşadığımız dünyanı yaxından tanımaq üçün maraqlı faktları açıqlayıb.

Sənaye inqilabına görə formalaşdırılan təhsil sisteminin bu gün aktuallığını itirdiyini qeyd edən bestsellər müəllifi təhsilin torpaqdan başlamasının vacibliyinə diqqət çəkib. Bildirib ki, ibtidai təhsil Nyutonun nəzəriyyəsindən Kvantın vahid baxışına uyğunlaşdırılaraq yenidən dizayn edilməlidir. Psixoloq düşünür ki, ibtidai sinfin hər mərhələsində şagirdlərə şahmat öyrədilməlidir: birinci sinifdə "Qidalanma nədir, nə işə yarayır? Torpaq nədir? Bədən və beyin necə işləyir?" suallarına cavab tapılmalı, elmin tarixi, musiqinin riyaziyyatı və şahmat öyrədilməlidir. İkinci sinifdə isə regenerativ kənd təsərrüfatı, avtotrofiya və heterotrofiya, mikrobiota və biomüxtəliflik, ağılın nə olduğu, insanlığın vahid tarixi, səs və seçilmiş musiqi aləti. Üçüncü sinifdə bitkilər və heyvanlar, biologiya, psixologiya, vahid din, sıfır və riyaziyyat, dərin oxu tədris edilməlidir.

Dünyadakı 4 əsas problemi (biomüxtəliflik, meşələrin məhvi, çirklənmə, qlobal istiləşmə) dilə gətirən tanınmış yazıçı qeyd edib ki, bu problemləri dərk etmədən və həlli yolları haqqında düşünmədən təhsildə lider olmaq mümkün deyil.

### Rəqəmsallaşmaya baxışımız gələcəyi müəyyənləşdirir

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Baş katibinin Təhsil siyasəti üzrə xüsusi müşaviri, Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramının yaradıcısı və direktoru Andreas Şleyxer "Təhsil üçün yeni çağırışlar" təqdimatı ilə çıxış edib.

PISA direktoru Azərbaycanın təhsildə yeni çağırışlarla bağlı atdığı strateji addımların çox təqdirəlayiq olduğunu bildirib. O, təhsil naziri Emin Əmrullayevin çıxışına istinad edərək vurğulayıb ki, tarix boyunca Azərbaycan təhsilinin təşəkkül tapdığı yolu nazirin dilə gətirməsi gələcəklə bağlı ciddi dəyişikliklərin olmasına dəlalət edir.

Narahatedici məqama toxunan PISA direktoru vurğulayıb ki, İƏİT-ə üzv olan ölkələrin təhsil nəticələrinə baxsaq 9% insan faktı rəydən fərqləndirə bilir. 92% insan isə faktı rəydən ayırmağı bacarmır. Digər tərəfdən Çində savadlılıq artır, Sinqapur yaxşıdan əlaya doğru gedir, Estoniya təhsil nəticələrini yaxşılaşdırır. Portuqaliya təhsili prioritet sahəyə çevirib. Türkiyə, Azərbaycan da təhsildə kütləviliyi artırıb, təhsil nəticələri yüksəlib.

A.Şleyxer onu da qeyd edib ki, texnoloji dəyişikliklər, robotlar, süni intellekt, sosial media, biomühəndislik və bu kimi nailiyyətlər təhsil sisteminin qarşısında bir çağırışdır: "Rəqəmsallaşmaya baxışımız gələcəyi müəyyənləşdirəcək. Təsəvvür edin ki, rəqəmsal platformalar, kiçik şirkətlər bir neçə işçi ilə qlobal təsirə malik olurlar. Deməli, texnologiya yüksək biliyə sahib olanların dostu olacaq. Bu səriştəni özündə əks etdirməyən ölkələrin düşməni olacaqlar. Bir sözlə, istedadlılara sərmayə qoymaq kritik əhəmiyyətə malikdir".

Natiq onu da deyib ki, təhsil sisteminin gələcək haqqında fikri köhnəlib. Bu da öyrənənlərdə gələcəklə bağlı düzgün fikir formalaşdırmır. Bunun üçün şagird keçmişdəki ənənələrlə deyil, gələcək zaman üçün hazırlanmalıdır: "Rəqəmsallaşma əsas vəzifələri dramatik formada dəyişir. Dünya nəyi bildiyinizə görə sizi mükafatlandırmayacaq. Nəzərə alın ki, "Google" da hər şeyi bilir. Dünya sizə nəyi edə bildiyinizi, tapdığınız həlləri mükafatlandıracaq. Müasir təhsilin məqsədi bilik verməkdən daha çox, yaradıcı yanaşmanı, tənqidi düşüncəni inkişaf etdirməyin yollarını öyrətmək olmalıdır. Gələcəyin məktəbləri şagirdlərin mühakiməsini, tənqidi və yaradıcı düşüncəsini, şəxsi və ictimai fəaliyyətlərini daha səmərəli etmələrinə köməklik göstərməli, onların sintez etmə və problem həll etmə bacarıqlarını inkişaf etdirməlidir. Öyrənmədə iştah, məsuliyyəti üzərimizə götürmək, sosial və emosional bacarıqlar önəmlidir".

PISA direktoru həmçinin qeyd edib ki, uğurlu təhsilin sirri hər uşağın öyrənmə potensialına güvənməkdir. A.Şleyxer deyib: "Qeyri-müəyyənlik dövründə öyrənənləri dəyişikliyi həyata keçirəcək innovatora çevirmək və bu inamı onlara aşılamaq lazımdır. Şagirdləri hər gün yeni formul əzbərlətməyə sövq etsək, onlar dərsdən soyuyacaqlar. Öyrənənlərə o fənnin düşüncə tərzini aşılamaq lazımdır. Məsələn, riyaziyyatı götürək. Onlara formul əzbərlətmək yerinə riyazi düşüncə tərzini aşılamaq lazımdır. Tarixçi, kimyaçı kimi düşünmək önəmlidir. Problemin səbəbini və mahiyyətini anlamaq düsturları əzbərləməkdən daha vacibdir. Müəllimlərin əsas məqsədi şagirdlərə öz biliklərini ötürmək deyil, onlara daim bələdçilik edəcək təməl bilgilərdən ibarət "kompas" vermək olmalıdır. Müəllimlərin şagirdlərdə düzgün şüurun formalaşmasına nail olması təhsil sisteminin uğurunun əsas amilidir".

### Təhsil üçün yeni normalar

Beynəlxalq forumun növbəti qlobal spikeri 60 milyon dollar cəlb edərək bir nömrəli ali təhsil müəssisəsi Massaçusets Texnologiya İnstitutunun (MIT) və Harvardın dəstəyi ilə "edX" öyrənmə platformasını yaradan və hazırda həmin platformanın CEO-su olan MIT-in professoru Anant Aqarval "Təhsil üçün yeni norma" barədə danışıb. Yeni təhsil norması olaraq hibrid təhsilin əhəmiyyətinə toxunan professor bildirib ki, tədrisdə hibrid yanaşma öyrənmə nəticələrinə xüsusi təsir edir və öyrənənlərin stresini azaldır. Dünya şöhrətli professor bildirib ki, pandemiya dövründə yeni tendensiyaların şahidi oluruq. Gələcəyin təhsilində 4 əsas dəyişikliyin olacağına diqqət çəkib. Qeyd edib ki, ömür boyu öyrənmə xüsusi əhəmiyyətə malik olacaq. Data, kiber təhlükəsizlik, süni intelekt, rəqəmsal marketinq sahələrinə marağın artdığını vurğulayan professor onu da bildirib ki, öyrənənlər daha qısa və tətbiqi mümkün proqramlara yönəlməyə maraqlıdırlar. Növbəti vacib dəyişikliyin hibrid təhsilin vacibliyi ilə əlaqəli olduğunu dilə gətirib. Dördüncü dəyişiklik olaraq liderlik, ünsiyyət bacarıqları və emosional zəkanın vacibliyinin başa düşüləcəyini bildirib.

Professorun maraqlı çağırışlarından biri də müxtəlif universitetlərdə dərs almaqla bakalavr dərəcəsinə sahib olmağın mümkünlüyüdür. Aqarvalın fikrincə, bakalavr tələbəsi 10-15 universitetdə dərs alaraq məzun ola bilər. Eyni zamanda, bir çox insanların universitetlərdə tədris olunan hər şeyi öyrənməsinə ehtiyac yoxdur. Tələbələr onları sadəcə bir komponentdə öyrənməklə tədrisi başa vura bilərlər. Onun proqnozuna görə, 20-30 ildən sonra bakalavr dərəcəsi əhəmiyyətli olmayacaq və tənəzzülə uğrayacaq, işəgötürənlər səriştə axtaracaqlar.

Öz çıxışında "Hər bir şəxsin dəyişiklik yaratmaq potensialı var", "Yorulmaz öyrənənlər dünyanı dəyişir" çağırışını edən məşhur professor hər kəsi bu yola dəvət edib.

### Təhsildə 6C

Təhsildə liderlik üzrə ən tanınmış professorlardan biri, Toronto Universitetinin fəxri professoru, "Dərin öyrənmə" nəzəriyyəsinin yaradıcısı, beynəlxalq səviyyədə tanınan yazıçı və təhsil tədqiqatçısı Maykl Fullan təhsildə liderlik barədə danışıb və yaradıcısı olduğu 6C nəzəriyyəsinə toxunub. Təhsil işçilərini qlobal dəyişikliyin aparıcı qüvvəsi hesab edən dünya miqyaslı professor 6C nəzəriyyəsi barədə danışarkən bunları diqqətə çatdırıb: "1.Xarakter (Character) - Xarakterin inkişafı, dürüstlük, etibarlılıq, dözümlülük, əzmkarlıq, möhkəmlik; 2.Vətəndaşlıq (Citizenship) - qlobal vətəndaşlıq, müxtəlif dəyərlərə hörmətlə və maraqla yanaşma, problemlərin həllinə yönəlmə, ətraf mühit problemlərinə biganə qalmama; 3.Əməkdaşlıq (Collaboration) - komanda işi, birgə qərar vermə, öyrənmə və öyrətmə, töhfələrə açıq olma və töhfə vermə; 4.Kommunikasiya (Communication) - əlaqələr, rəqəmsal, yazılı, şifahi ünsiyyət, publika qarşısında çıxış; 5.Yaradıcılıq (Creativity) - sosial və iqtisadi fürsətləri dəyərləndirmə və təşəbbüskarlıq, sualı düzgün zamanda vermək, beləcə yeni ideyalar tapmaq, ideyaları həyata keçirməkdə liderlik göstərmək; 6.Tənqidi düşüncə (Critical Thinking) - məlumatı və arqumentləri tənqidi dəyərləndirmə, fikirlər arasındakı əlaqələri görmə, ortaq naxışları sezmə, yeni mənalar çıxarma və real həyata tətbiq etmə".

Həmçinin, Toronto Universiteti Ontario Təhsil Araşdırmaları İnstitutunun keçmiş dekanı, 2003-2014-cü illərdə Ontarionun baş nazirinin təhsil məsələləri üzrə baş məsləhətçisi olmuş M. Fullan bildirib ki, mövcud olan təhsil sistemi öyrənənləri həvəsləndirən bir sistem deyil. Şagird və tələbələr getdikcə təhsilə olan maraqlarını itirirlər. Mövcud təhsil sistemi XXI əsrin çağırışları ilə uzlaşmır: "Bizə problemləri səmərəli şəkildə həll edə biləcək bacarıqlı insanlar lazımdır. Bu mənada təhsildə yeni məqsəd olmalıdır: təhsili müasir dünya ilə necə əlaqələndirməliyik, uzlaşmanı necə təmin etməliyik, tələbələr hansı keyfiyyətlərə malik olmalıdırlar ki, mövcud vəziyyətin öhdəsindən gəlsinlər. Qeyd etdiyim 6 ingilis C hərfi olan bacarıqları önə çəkməklə bütün bu problemlərin öhdəsindən gəlmək olar".

### Ən önəmli dərs

2005-ci ildə qurduğu və hazırda CEO-su olduğu ödənişsiz təlim platforması "Khan Academy" ilə bütün dünyaya səs salan, dünyanın bir nömrəli ali təhsil müəssisəsi sayılan Massaçusets Texnologiya İnstitutunun və Harvard Universitetinin məzunu Sal Xan da forum iştirakçılarının suallarını cavablandırıb və müəllimlərə bir sıra çağırışlarını çatdırıb. Bill Qeytsin haqqında "Təhsildə ən həyəcanverici yeniliklərin müəllifidir. "Khan Academy" məktəblərdə gördüyü işlər və təhsili yaxşılaşdırmaq planları ilə bizləri heyrətləndirməyə davam edir" dediyi S. Xan təhsildə təbliğ etdiyi əsas ideya barədə danışıb. Qeyd edib ki, hər kəs hər şeyi öyrənə bilər. Hər kəsə hər yerdə pulsuz dünya səviyyəli təhsil vermək lazımdır. O, şagirdlərin dərsə marağını artırmaq üçün əks-əlaqənin qurulması mövzusuna xüsusi toxunub.

S.Xan "Dünyaya gələn bir uşaq ən az 3 ixtisas dəyişəcək. Belə çağırışın fonunda təhsili necə dizayn etməliyik?" sualına cavab olaraq bildirib ki, insanlara fasiləsiz öyrənmək bacarığı aşılamaq lazımdır.

Müəllimlərin "Google" ilə rəqabətdə öndə olması üçün öz fikirlərini paylaşan Sal Xan qeyd edib ki, tələbələrdə olması arzulanan məqamlar müəllimlərin özlərində olmalıdır. Savadlılıq məlumat tapmaq yox, bilik yaratmaq, tənqidi düşüncə bacarığını inkişaf etdirməkdir.

Həyatdan öyrəndiyi ən önəmli dərs barəsində danışan "Khan Academy"nin yaradıcısı "Hər şeyə reaksiya verməmək, meditasiya üçün yarım saat vaxt ayırmaq günü yaxşılaşdırır. Yaşadığınız andan zövq almaq önəmlidir. Təşəbbüskar olun" deyib.

Qeyd edək ki, Təhsildə Yeni Çağırışlar II Beynəlxalq Forumu T-Network təhsil işçilərinin təcrübə və kommunikasiya platforması və Təhsil İnstitutunun təşkilatçılığı, Təhsil Nazirliyi, Azərbaycan Gənc Müəllimlər Assosiasiyası, "Bir könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin dəstəyi ilə baş tutub. Forumun informasiya tərəfdaşı "Azərbaycan müəllimi" qəzeti və "Azərbaycan məktəbi" jurnalıdır.

Yeri gəlmişkən, məlumat üçün onu da vurğulayaq ki, Təhsil Nazirliyinin "Facebook" səhifəsindən 2021-ci ilin yanvar ayından Cəfər Mənsiminin təqdimatında "Yeni çağırışlar" adlı müzakirə proqramı yayımlanır. Bu günə qədər proqramda Nobel Sülh mükafatçısı, professor Məhəmməd Yunus, dünyanın ən zəngin ikinci adamı İlon Maskın anası, yazıçı, dietoloq və model Mey Mask, dünyaca məşhur "Khan Academy"nin qurucusu və CEO-su Sal Khan, dünyaca məşhur finlandiyalı professor Pasi Sahlberg, Harvardlı alim, Harvarddakı Dəyişiklik üzrə liderlik qrupunun rəhbəri Toni Vagner, tanınmış təhsil tədqiqatçısı və yazıçı Dr. Özgür Bolat, "HundrED" qlobal təhsil təşkilatının yaradıcısı və rəhbəri, sahibkar, kreativ direktor və yazıçı Saku Tuominen, Türkiyə Təhsil Dərnəyinin prezidenti Səlcuq Pəhlivanoğlu, "edX"in yaradıcısı Anat Aqarval, Türkiyənin ən tanınmış yazıçılarından biri, İzgören Akademiyasının qurucusu Ahmet Şerif İzgören və digərləri qonaq olublar. Yeni çağırışların müzakirə edildiyi proqramda həm də Azərbaycançılıq ideyası qonaqlara təqdim edilir, ölkəmiz təbliğ olunur. Məsələn, qlobal miqyasda özünü təsdiqləmiş qonaqlara yaradıcı formada təqdim edilən Şuşa Realni məktəbi, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi, Hüseyn Cavidin "Gülbahar"ı, NASA tərəfindən kosmosa göndərilən qızıl plastinkada yer alan Kamil Cəlilovun balaban ilə çaldığı "Çahargah ahəngi" kompozisiyası, aparıcının milli libasda qonaqları salamlaması və s. bu qəbildəndir.

**Lamiyə ƏLİMƏRDANOVA**

# Azərbaycanın parlaq gələcəyinə töhfə



Fariz İsmayılzadə

## Xaricdə təhsil almış gənclər yeni Dövlət Proqramının qəbulunu təhsilə yüksək dövlət dəstəyinin bariz nümunəsi hesab edirlər



Ümid Mehdiyev

⇦ Əvvəli səh.1

Sərəncama əsasən, sürətli inkişaf üçün zəruri olan müasir bacarıqlara malik insan kapitalının yaradılması, bu çərçivədə istedadlı gənclərin xarici ölkələrdə təhsil almasına dövlət dəstəyinin davam etdirilməsi, habelə uğurlu təcrübəyə əsaslanan effektiv maliyyələşmə modelinin formalaşdırılması məqsədilə Nazirlər Kabinetinə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramının layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Təhsil naziri Emin Əmrullayev ötən həftə sözügedən sərəncamla bağlı keçirdiyi brifinqdə yeni Dövlət Proqramının əsas hədəflərini açıqlayıb. Nazir yeni hazırlanacaq Dövlət Proqramına əsasən tələbələrin bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil ala biləcəyini, lakin magistratura səviyyəsi üzrə təhsilə üstünlük veriləcəyini bildirib. Bundan əlavə, xaricdə təhsillə əlaqəli daha çox texniki və texnoloji sahələrə, fundamental elmlərə üstünlük veriləcək.

Dünyanın nüfuzlu universitetlərində təhsil almış və hazırda ali təhsil müəssisələrimizdə çalışan Dövlət Proqramı məzunları yeni proqramın əhəmiyyəti barədə nə düşünür? Onlardan bəzilərinin "Azərbaycan müəllimi" ilə bölüşdükləri fikirlərini oxucuların diqqətinə çatdırırıq.

## Dövlət Proqramı ölkədə insan kapitalı yaradır

**Fariz İSMAYILZADƏ,**
*ADA Universitetinin prorektoru, Dövlət Proqramı məzunu*

- Təbii ki, xaricdə təhsil üzrə Dövlət Proqramının mənim həyatımda, peşəkar inkişafımda çox böyük rolu olub. Çünki mən Dövlət Proqramı çərçivəsində İspaniyanın Biznes Məktəbini (Instituto de Empresa Business School) MBA ixtisası üzrə bitirmişəm və bu da mənim gündəlik işimdə və idarəçilik təcrübəmdə, ADA kimi bir universitetdəki fəaliyyətimə, bir peşəkar kimi işimə çox böyük töhfə verib. Mən bu proqram çərçivəsində çoxlu biliklər, bacarıqlar, əlaqələr, yeni beynəlxalq dostlar qazanmışam. Və ümumiyyətlə, hesab edirəm ki, Dövlət Proqramı cənab Prezidentin həyata keçirdiyi ən uğurlu proqramlardan biridir. Çünki bu, ölkədə insan kapitalı yaradır, ölkəmizin insan potensialını inkişaf etdirir və nəticədə böyük qələbələrə, böyük inkişafa gətirib çıxarır. Məhz bizim torpaqlarımızın da azad olunmasında, bizim iqtisadi inkişafımızda insan kapitalı, insan faktorları, resursları çox böyük rol oynayır. Ümid edirəm ki, belə proqramlar gələcəkdə daha da çox olacaq.

## "Yüksək qayğıya görə cənab Prezidentə dərin minnətdarlığımı bildirirəm"

**Ümid MEHDİYEV,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti rektorunun strateji inkişaf üzrə müşaviri, Dövlət Proqramı məzunu*

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" 30 sentyabr 2021-ci il tarixli Sərəncamını bütün ölkə ictimaiyyəti kimi mən də sevinclə qarşıladım. Xüsusən, bu sənəd əsasında hazırlanacaq növbəti Dövlət Proqramında yer alacaq strateji sahələrə nəzər salanda onu Azərbaycanın parlaq gələcəyinə doğru atılan daha bir böyük addım kimi dəyərləndirmək olar. Bu təcrübə artıq bir dəfə icra olunub və uğurlu nəticələrini hazırda proqramın məzunları və dövlətimiz görməkdədir. 2007-2015-ci illəri əhatə edən birinci Dövlət Proqramının icrası nəticəsində yüzlərlə istedadlı gəncimiz müxtəlif ixtisaslar üzrə nüfuzlu xarici universitetlərdə təhsil aldılar və onların əksəriyyəti bu gün elm, istehsalat və iqtisadiyyatın müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər.

Şanslı gənclərdən biriyəm ki, mən də məhz birinci Dövlət Proqramı çərçivəsində 2015-ci ildə Böyük Britaniyanın Liverpul Universitetində "Təchizat Zəncirinin İdarə edilməsi" ixtisası üzrə magistr təhsilimi tamamlamışam. Təhsilimi tamamladıqdan sonra ölkəyə dönərək bir müddət logistika sahəsində fəaliyyət göstərdim. Bu gün isə Azərbaycan Dövlət Pedaqoji Universitetində idarəçilik və elmi fəaliyyətimi davam etdirirəm.

Düşünürəm ki, yeni Proqramın hazırlanması ali təhsilin bakalavriat və magistratura səviyyələrində bir çox gəncimizin XXI əsrin tələblərinə uyğun və ölkəmiz üçün strateji ixtisaslarda dünyanın ən yaxşı ali təhsil ocaqlarında təhsil almalarına şərait yaradacaq. Dövlət Proqramının məzunu kimi Azərbaycan dövləti və şəxsən cənab Prezidentə təhsilə göstərdiyi bu yüksək qayğıya görə dərin minnətdarlığımı bildirir, yeni Proqramın gələcək iştirakçılarına indidən uğurlar diləyirəm.

Əminəm ki, cənab Prezidentin imzaladığı Sərəncam əsasında qəbul ediləcək növbəti xaricdə təhsil Dövlət Proqramının iştirakçısı olacaq gənclər də onlara göstərilən bu yüksək etimadı və Azərbaycan xalqı qarşısındakı mənəvi məsuliyyətlərini daim göz önündə saxlayaraq yüksək ixtisaslı mütəxəssislər kimi ölkəmizin inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklər və Azərbaycanın elmtutumlu və dayanıqlı iqtisadiyyatının hərəkətverici qüvvəsi olacaqlar.

Onu da demək lazımdır ki, ötən müddətdə birinci xaricdə təhsil Dövlət Proqramı ilə yanaşı "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsilin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" da qəbul olunmuşdur ki, bu proqram çərçivəsində də bir çox dövlət ali təhsil müəssisələrimiz nüfuzlu xarici universitetlərlə beynəlxalq ikili diplom sazişləri imzalayıb. Təkcə Pedaqoji Universitetlə ABŞ-ın Corc Vaşinqton Universiteti arasında "Təhsil" ixtisası üzrə bağlanan ikili diplom proqramı üzrə magistratura səviyyəsində artıq hər tədris ilində 25 nəfər olmaqla 50 gənc təhsilini uğurla davam etdirir. Növbəti ildən qəbul planının 25-dən 40-a artırılması da nəzərdə tutulur.

**Oruc MUSTAFAYEV**





# “ZƏFƏR ilinin MÜƏLLİMİ”




## Təhsil Nazirliyi yeni layihəyə start verir

**Təhsil Nazirliyi “Zəfər ilinin müəllimi” adlı layihəyə start verir. Layihə bu ilin sonunadək davam edəcək.**

**Sözügedən layihə çərçivəsində Təhsil Nazirliyinin internet resurslarında 44 günlük Vətən müharibəsində döyüşən, o cümlədən şəhid olan müəllimlərimiz haqqında posterlərin, yazı, müsahibə, videosüjetlərin hazırlanaraq #ZəfərİlininMüəllimi həştəqi altında yayımı nəzərdə tutulur.**

**Bundan əlavə, hər kəs layihəyə uyğun olaraq sosial şəbəkələrdə #ZəfərİlininMüəllimi həştəqi altında müvafiq paylaşımlar edə bilər.**

**Qeyd edək ki, layihənin məqsədi Vətən müharibəsi iştirakçısı olmuş müəllimlərin geniş ictimaiyyətə tanıdılmasıdır.**

**Müəllim sözü ərəb dilindən tərcümədə “təlim edən, öyrədən” mənasını verir. Dünyanın bir sıra ölkəsində bu adın mənası eyni şəkildədir. Bu ada saysız - hesabsız şeirlər, hekayələr yazılıb, romanların müəllim qəhrəmanları çox zaman ehtiramla anılıb. İnsanlar bu sözü hörmət əlaməti olaraq adlardan sonra da işlədirlər. Yəni, hörmətli olmaq müəllimliklə eyni anlamlıdır. Axı insan ona yazmağı, oxumağı, həyata baxmağı və ən əsası, öyrənməyi öyrədən insana necə hörmət etməsin? Hesab etsək ki, insanlar ömürlərinin ilk və ən məhsuldar illərini öyrənərək keçirirlər, bu yolda da ən yaxın bələdçiləri müəllimləri olur.**

## Müəllimlikdən öyrəndiklərim



**Aybəniz RÜSTƏMOVA,**
*Bakı şəhəri 47 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

Ailədən sonra hansısa insanın həyatına şahid ola bilmək, əlbəttə ki, əvəzolunmaz hissdir. Əgər “Pafoslu, təmtəraqlı, minnətdolu cümlələr ən çox hansı peşə sahibi üçün qurulmalıdır?”- soruşsanız, heç şübhəsiz, “müəllim üçün!” deyərəm. Amma mən belə etməyəcəyəm, bir müəllim olaraq müəllim sənətini tərifləmək əvəzinə bir az fərqli nöqtədən baxacağam.

Müəllimlə şagird arasında heç kimin sezə bilmədiyi bağlar olur. Müəllim sinif otağına daxil olmazdan əvvəl bütün gündəlik problemlərini, çətinliklərini, həyat mübarizəsini qapının kandarında buraxır. Çantasında kitablarından, qələmlərindən əlavə, birdən hansısa ac olar, yanında yeməyə nəyisə olmaz deyib mərhəmətlə yerləşdirdiyi konfetləri, birdən hansısa yıxılar, üstü-başı çirklənər deyə əlavə salfetləri də olur. Beynində tədris proqramında qeyd edilən “öyrədiləcəklər siyahısından” əlavə, həyat kitabını oxuma düşüncələri də olur. Şagirdi hər dəfə qaçanda yıxılmır axı, kədərin küləyindən də yıxıla bilir. Kədər demişkən, biz müəllimlər əslində şagirdlərimiz üzərində necə böyük iz qoyduğumuzu bilirikmi? Doğru olmayan yanaşma və rəftar onların ən başda akademik uğuru olmaqla, bir çox mövzuda zədə almasına səbəb olur.

* *İmtahan qorxusu;*
* *Auditoriya önündə çıxış etmək qorxusu;*
* *Özünə inamın itirilməsi və s.*

Biz ilk əvvəl öyrədərək, daha sonra inanaraq dəstək oluruq. Bir dəfə belə ədalətsiz yanaşmamız onun üçün “mən bacarıqsızam” nəticəsinə gətirir, “imtahandan keçməsən, sənin üçün heç yaxşı olmayacaq” və bu kimi ifadələr imtahanı qorxulu yuxuya çevirir və ən önəmlisi lövhədə utandırdığımız hər uşaq əslində insanlar qarşısında danışmaqdan sıxılan birinə çevrilə bilir. Müəllimin bir ağırlığı, zəhmi olması gərəkdiyinə inanan biriyəm. Şagirdlərim də təsdiq edər ki, işimə son dərəcə ciddi yanaşan biriyəm. Amma hər biri mənim üçün xüsusi olan şagirdlərimin həm təhsil, həm də mənəvi dünyaları əziz olur. V.Suxomlinksi söyləyib ki: “Əgər hansısa şagird müəllimin yaddaşında aydın qalmayıbsa, deməli, müəllim o şagirdə heç nə verməyib”. Həqiqətən də hər bir şagirdim illər keçsə belə xatirimdə iz qoyur. Bəzən döyülən qapımın ardında sevdiyim çiçəkləri əllərində tutub, çox sevdiyim şagirdləri görürəm. Müəllim olmayan bilməz, mən onlarda hansı izləri qoymuşam, bilmirəm. Amma onların hər biri məndə dərin və doğma izlər qoyublar. Həyatımızdan onlarla insan keçir, gedir. Bəzisi sadəcə toxunur, bəzisi isə varlığıyla varlığımıza dəyər qatır. Bizim peşəmiz budur. Müəllim öyrədən peşədir, amma ən vacibi sevgini öyrəndiyim peşədir.

# Ucqar kəndin gənc müəllimi

## Onu bu uzaq yola müəllimlik sevdası aparır

**Təhsil naziri Emin Əmrullayev ötən həftə AzTV-yə müsahibə verərək hər il müəllimlərin işə qəbulu müsabiqəsindən sonra əksəriyyəti ucqar kənd məktəblərində olan təxminən 1000-dən artıq vakant yer qaldığını bildirib. Nazir Bakıda olduğu kimi, ucqar kənd məktəblərində də təhsilalanlar üçün keyfiyyətli müəllim axtarışlarının davam etdiyini vurğulayıb. E.Əmrullayevin bu sözləri diqqəti ucqar kənd məktəblərində işləməyi seçən müəllimlərin üzərində cəmləyib. Maraqlıdır, ucqar kəndlərdə olan vakansiyaları kimlər tutub?**



Sevinc Qasımova



Sərvər Feyzullayev

Təhsil İnstitutu İnsan Resursları Mərkəzindən "Azərbaycan müəllimi" qəzetinə bildirilib ki, bu il keçirilən müəllimlərin işə qəbulu müsabiqəsinin nəticələrinə görə, ucqar sayılan H1, H2 yerlərinə ümumilikdə 3000-dən çox müəllim qəbul olunub.

Xatırladaq ki, ölkəmizin bir çox bölgələrində rayon mərkəzindən uzaqda yerləşən kəndlərə müəllimləri cəlb etmək üçün həvəsləndirmə (H1, H2) tətbiq edilir. Rayon mərkəzindən 3 km-dən artıq məsafədə yerləşən kənd məktəbləri üçün nəzərdə tutulan həvəsləndirmənin 2 istiqaməti var.

H1-ə aid edilən kənd məktəbləri rayon mərkəzindən 3 km-dən 20 km-ə qədər məsafədə yerləşir və maaşın üstünə 60 manat əlavə vəsait gəlir.

H2-yə aid kənd məktəbləri isə rayon mərkəzindən 20 km-dən artıq məsafədə yerləşir və müəllimin maaşına 160 manat əlavə olunur.

### Məlikçobanlı kəndinin təzə müəllimi özünə məktəb seçdi, kənd qazandı

İşləmək üçün ucqar kənd məktəblərini seçənlərdən biri Sərvər Feyzullayevdir. Şamaxıdan 14 kilometr məsafədə yerləşən Məlikçobanlı kəndində Gülağa Ağayev adına tam orta məktəbindəki şagirdləri ilə artıq tanış olub. Müəllim nəzəriylə hər kəsi gözdən keçirib. Kimi ali məktəbə buraxılacağının, kimi olimpiadalara aparacağının hesabını tutub, kimləri "sadəcə hesab-kitab işlərini də bilsə, qazancdandır", - qrupuna saldığına qərar verib. Ancaq heç kimdən əlini üzməyib. Çünki özünə güvənir. Bu kəndin uşaqlarına riyaziyyatı sevdirməkdə, informatika ilə həyatlarına yeni texnologiyaları gətirməkdə qərarlıdır.

### "Olimpiada təcrübəsi həm məktəb, həm də şagirdlərimiz üçün ciddi inkişafa səbəb olacaq"

30 yaşlı Sərvər Feyzullayev İsmayıllının İstisu kəndindəndir. Heydər Əliyev adına İvanovka kənd tam orta məktəbinin 2010-cu il məzunudur. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ruyaziyyat və infotmatika müəllimliyi ixtisası üzrə təhsil alıb. Məzun olandan sonra özəl kurslarda dərs deyib. Artıq Məlikçobanlı kənd uşaqlarının riyazi savadını artırmağın yollarını axtarmağa başlayıb: "Xüsusilə IX-XI sinif şagirdlərinə köklənmişəm. Qısa müddətdə məktəbdə riyaziyyata münasibəti dəyişmək, fənnimi sevdirmək və ən azı buraxılış imtahanlarında məktəbin riyaziyyat üzrə nəticələrini yüksəltmək istəyirəm. Məktəb rəhbərliyi ilə də danışmışam. Direktor tam dəstək verdiyini deyib. Şagirdlərlə istər dərs zamanı, istərsə də dərsdən sonra tam təmənnasız əlavə məşğul olacağam. Potensiallı uşaqlarla bağlı böyük planlarım var. Fənn olimpiadalarında iştirak edəcəyik. Düzdür, hələlik böyük nəticələr əldə edəcəyimizi düşündüyüm elə şagirdimiz yoxdur, ancaq olimpiadada iştirak bizə qələbə gətirməsə belə, təcrübə qazandıracaq. Hesab edirəm ki, olimpiada təcrübəsi həm məktəb, həm də şagirdlərimiz üçün ciddi inkişafa səbəb olacaq. Olimpiadaya hazırlamaq üçün V-VI sinif şagirdlərindən seçirəm. Artıq onlarla işə başlamışıq. Yarışlar təşkil edir, dərsdə əyləncəli oyunlar qururam. Bu istiqamətdə işimi bir az da genişləndirərək məktəbimizdə riyaziyyat həftəsi, məntiq yarışları da təşkil etməyi planlaşdırıram. Məktəb rəhbərliyi hər cür şərait yaradacaq. Ona görə də bizim üçün qısa vaxtda nəticələrimizi yüksəltmək çətin olmayacaq".

### "Peşəmi sevirəm, məktəbi də sevdim"

Hələlik müvəqqəti müqavilə ilə işə başladığı təhsil ocağında ilk fürsətdə yerini bərkitməyi düşünür: "30 saat dərs yüküm var. Hazırda sosial məzuniyyət yerinə işləyirəm. Ancaq daimiləşmək üçün müsabiqəyə qatılaraq bu şansı da dəyərləndirəcəyəm".

Öz evindən, el-obasından cəmi 80 kilometr uzaqda olan Sərvər müəllimin yolunu Məlikçobanlı yurduna salan isə nə 30 saat dərs yükü, nə də maaşına əlavə ediləcək həvəsləndirici pul: "Ali məktəbə qəbul üçün ixtisas seçimi zamanı ilk 4-lükdə müəllimliyi qeyd etmişdim. Bu peşəyə də müəllimliyi sevdiyim üçün yiyələnmişəm, bu məktəbə də müəllimlik üçün gəlmişəm. Peşəmi sevirəm, məktəbi də sevdim. Bu məktəbin müəllimi olaraq qalacağam".

Sərvər müəllimi nəinki məktəbdə, ümumiyyətlə, kənddə isti qarşılayıblar. Məktəbdə müəllimlər ehtiyac duyduqca pedaqoji təcrübəsini paylaşır onunla. Hər gün gedib-gələ də bilər işlədiyi məktəbə. Ancaq bunun işinin keyfiyyətinə təsir edəcəyini düşünür. Odur ki, işlədiyi kənddə də yaşayacaq: "Burada kirayədə yaşayıram. Əslində, buna "kirayə" demək doğru sayılmaz. Evində qaldığım ailə mənimlə bütün həyatını, yeməyini-içməyini paylaşır. Məni hər şeylərinə ortaq ediblər. Heç evə nə qədər kirayə haqqı verəcəyimi belə deməyiblər. Bu mühit mənim üçün inanılmaz gəlir. Məktəbdə daimiləşməyi, burada qalmağı düşünürəm. Bu kəndin uğurlarında payım olsun istəyirəm".

### Şirinbəyə Bakıdan gələn könüllü-müəllim

O, Azərbaycan təhsilinin yetişdirdiyi bir könüllüdür. Əvvəlcə tələbələrin könüllüsü olub, indi isə müəllimlərin könüllüsüdür. Tələbəykən fransız dilindən tərcüməyə ehtiyac duyulan yerlərdə görünüb, tədbirdən-tədbirə qaçıb, indi isə fransız dilini öyrətmək üçün yaşadığı Bakı şəhərindən 150-200 kilometr uzaqlıqda yerləşən Saatlıya üz tutub. Özü də tərəddüdsüz, düz Saatlının Şirinbəy kənd məktəbinə. Sadəcə özü də getməyib, ailəsini də özüylə ta Şirinbəyə aparıb çıxarıb.

### Xəyallarda qurduğu dərsi indi siniflərdə deyir

Adı Sevinc Qasımovadır. Beyləqandandır. Tələbə olduğu bir gündən Bakıda yaşayır. 2008-2012-ci illərdə Azərbaycan Dillər Universitetində təhsil alıb. Fransız dili müəllimliyi ixtisası üzrə təhsilini başa vurduqdan sonra özəl kurslarda dərs deməyə başlayıb. Tələbəlik illərində könüllü olaraq "Eurovision" mahnı yarışında sinxron tərcüməçilik edib. Özəl kurslarda dərs deyib, müəllimlikdə təcrübə toplayıb. Bu illər ərzində Azərbaycan məktəbində dərs demək üçün öz üzərində işləyib. Yığdığı təcrübəni fransızcanı öyrənmək istəyənlərə bələdçilik etsin deyə kitaba çevirib. Həm dərslik, həm də test bankı hazırlayıb. Hazırda 20 min söz bazası olan lüğət üzərində işləyir.

Bu müddət ərzində ailə də qurub, ana da olub. Sıra gəlib ürəyində yaranan ana sevgisini, qazandığı müəllim peşəkarlığını sinifdə tətbiq etməyə. İllərdir xəyallarında qurduğu dərsi indi gerçək siniflərdə deyir.

### "Gələcək üçün daha böyük planlarım var"

Məktəbdə yaxşı qarşılanıb: "24 saat dərs yüküm var. Fransız dilini V sinifdən tədris edirəm. Fransız dilini şagirdlərimə sevdirmək üçün xeyli səy göstərməliyəm".

Sinfə iddialı girən Sevinc müəllim şagirdlərinin oturma düzəninə də müdaxilə edib: "Çox dəcəl şagirdlərimi önə, gözümün qabağına oturtdum. Şagirdlərimə Bakıdan məhz onlar üçün, onlara fransız dilini öyrətməyə gəldiyimi söylədim. Onlara önəm verdiyimi bilmələrini istəyirəm. Bunu bilsələr, daha həvəslə oxuyacaqlarını düşünürəm. Onları dil öyrənməyə stimullaşdırmağa çalışıram. Dərsliklə kifayətlənmirəm, həvəs yaradacaq müxtəlif yollara baş vururam. Əsas məqsədim fransız dilini ilk növbədə sinifdə uşaqlarıma sevdirməkdir. Dərsdə oxuyan-oxumayan hər kəsə bir iş tapşırıram. Zəif uşaqlara yüngül tapşırıqlar verirəm ki, öhdəsindən gələrək həvəslənsinlər. Nə öyrənsələr, qənimət sayıram. Ancaq yaxın gələcək üçün daha böyük planlarım var. Fransızların məşhur bayramlarından, qeyd etdikləri əlamətdar günlərindən biri ilə bağlı məktəbimizdə tədbir hazırlamaq istəyirəm. Yazda fransız dili günü keçirməyi planlaşdırıram. Bir sözlə, məktəbimizi məhz fransız dilinin tədrisinə görə başqalarından fərqləndirmək istəyirəm".

### "Məktəbi də sevirəm, kəndi də"

"Yağış yağıb. Bu gün yağışdan sonra düşən cığırla məktəbə getdim. O qədər fərqli hiss etdim özümü...", - deyir Sevinc müəllim. Müəllimliyi elə sevir ki, kəndin müəllimlik üçün addımladığı palçıqlı yolları da gözünə gözəl görünür. Deyir buradakı dünyanı onun gözündə gözəlləşdirən düşdüyü mühit, qarşılaşdığı münasibətdir: "Məktəbi də, şagirdlərimi də çox sevirəm. Onları sevə-sevə, əzizləyə-əzizləyə öyrətmək istəyirəm. Necə ki, onlar məni sevərək gəldiyim gündən bağırlarına basdılar".

Məktəb direktoru Daşdəmir Ulfanov onu öz balası kimi qarşılayıb, özünün tövsiyə etdiyi evdə yerləşdirib. Məktəbin yaxınlığında yerləşən evin sahibləri də gənc müəllim üçün ailə olub: "Mən gələndə artıq hər şey hazır olur. Evində qaldığım ailə "Sən məktəbdən gəlmisən", - deyib məni yeməklə qarşılayır".

Mərkəzdən uzaq kənd məktəbinin yeni müəllimi öz vəziyyətindən razıdır. Artıq ailəsiylə birlikdə kənddə məskunlaşmağa qərar verib: "İşimi sevirəm. Müəllimlik üçün ən uzaq yerdə də işləyərəm. Hazırda müvəqqəti müqavilə ilə fəaliyyət göstərirəm. Lakin daimiləşmə müsabiqəsinə qatılaraq həmişəlik burada qalacağam. Bu kənddə yaşamaq, Şirinbəy məktəbinin müəllimi olmaq mənim üçün fəxrdir".

**Ruhiyyə DAŞSALAHLI**

---

**Bölgələrdən**

### Hər iki şəhidin xatirəsi anılıb

II Qarabağ müharibəsi şəhidləri - Rəfael Əliyev və Araz Baxşəliyevin Füzuli rayonu Horadiz şəhər 2 nömrəli tam orta məktəbində xatirəsi anılıb.

Təhsil şöbəsindən verilən məlumata görə, dərsə başlamamışdan əvvəl şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra şəhidlərin evi qarşısındakı xatirə lövhəsinin önünə gül dəstələri qoyulub və məzarları ziyarət olunub.

Tədbirdə Rəfael Əliyevin qızları Günel və Miniş atalarının keçdiyi şərəfli həyat yolundan fəxrlə danışıblar.

### Vətən müharibəsi iştirakçısı doğma məktəbində

Şabran rayon Padar kənd tam orta məktəbində məktəbin məzunu olmuş II Qarabağ müharibəsi iştirakçısı Asif Mürsəliyevlə görüş keçirlib.

Təhsil şöbəsindən aldığımız məlumata görə, görüşdə 44 günlük Vətən müharibəsi, Azərbaycan Ordusunun gücü, xalqın birlik və iradəsindən danışılıb, torpaqlarımızın işğaldan azad olunması uğrunda canından keçən şəhidlərimizin xatirəsi yad edilib.

Sonra Asif Mürsəliyev öz döyüş yolundan, Vətən torpağını qorumağın necə şərəfli bir iş olmasından bəhs edib, şəhid olmuş döyüş yoldaşlarının xatirəsinə ehtiramını bildirib.

Həmçinin qeyd edib ki, qan bahasına geri qaytarılan torpaqlarımız, daha da möhkəmlənən müstəqilliyimiz və ərazi bütövlüyümüz bizə şəhidlərimizin əmanətidir və gələcək nəsillər bu əmanətə həmişə sahib çıxmalıdırlar. Bundan sonra da gənclərimiz igid vətən oğullarının şərəfli yolunu əzmlə davam etdirməlidirlər.

### "Nizami İli" tədbirində

Abşeron Tarix-Diyarşünaslıq Muzeyində Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş "Nizami İli" adlı tədbirdə bir sıra təşkilat və qurumların əməkdaşları ilə yanaşı, ictimaiyyət nümayəndələri də iştirak ediblər.

Abşeron Rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə şagirdlər dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin şeirlərini söyləyiblər. Sonra Azərbaycan və ingilis dillərində Nizami Gəncəvinin həyat və yaradıcılığından danışıblar.

Sonda Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Musiqili Komediya Xalq Teatrının aktyorları tərəfindən Nizami Gəncəvi əsərlərindən kiçik kreativ hissələr, "Xəmsə"dən səhnələşdirilmiş musiqili tamaşalar nümayiş olunub.

### 600-dən çox bal toplayan tələbələrlə görüş

Masallı şəhər Heydər Əliyev Mərkəzində ali məktəblərə qəbul imtahanlarında 600-dən çox bal toplayan tələbələrlə görüş keçirilib. Tədbirdə rayon təhsil şöbəsinin müdiri Tariyel Əkbərov məlumat verərək bildirib ki, 2020-2021-ci tədris ilində 1473 məzundan 598-i ali məktəblərə qəbul olunub. Onlardan 26-sı 600-dən yuxarı bal toplayıb. T. Əkbərov daha sonra yüksək nəticə göstərmiş tələbələri təbrik edib və onlara uğurlar arzulayıb.

Rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədov, Milli Məclisin deputatları Anar İsgəndərov və Məşhur Məmmədov çıxışlarında tələbə adını qazanan, bu sevinci yaşayan hər kəsi təbrik ediblər. Onlara yeni başladıqları tələbə həyatında uğurlar və yüksək nailiyyətlər arzulayıblar.

Yüksək bal toplayıb, tələbə adını qazanan Nəzrin Həmzalı, Aytac Qafarova, Mirzə Əjdərli, Səfər Cəfərli, şəhid mayor Anar Novruzovun qızı Firuzə Novruzova çıxış edərək göstərilən diqqət və qayğıya, müasir təhsilin nailiyyətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sonra tələbələr Heydər Əliyev Mərkəzində ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi və məktəblilərin əl işlərindən təşkil olunmuş sərgi ilə tanış olublar.

Sonda 600-dən yuxarı bal toplayan tələbələrə rayon icra hakimiyyəti başçısının və ATİAHİ rayon komitəsinin hədiyyələri təqdim olunub.

**Şakir CƏFƏROV**

# “Azərbaycanda Rektorlar Konfransı” yaradılması layihəsi çərçivəsində rektorların ilk görüşü



**Bakı Mühəndislik Universitetinin (BMU) rektoru, professor Havar Məmmədov “Azərbaycanda Rektorlar Konfransı” (ECAR) yaradılması layihəsi çərçivəsində təşkil olunan ali təhsil müəssisələrinin rektorlarının ilk görüşündə iştirak edib.**

Bakı Biznes Universitetində keçirilən tədbirdə BMU-nun rektoru Havar Məmmədov Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşdirilən təhsil islahatlarından ətraflı bəhs edib. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın universitetlər üçün yaratdığı əlavə imkanları nəzərə çatdıran rektor həmçinin ali təhsil sisteminin və universitetlərarası əlaqələrin inkişaf etdirilməsi ilə bağlı rəy və təkliflərini bildirib.

Avropa Komissiyası tərəfindən maliyyələşdirilən “Azərbaycanda Rektorlar Konfransının yaradılması” adlı Erasmus+ KA2 layihəsində BMU tərəfdaş qismində iştirak edir. Layihənin ilk fəaliyyət planı çərçivəsində Azərbaycan universitetləri, eləcə də ali təhsil sahəsində olan digər maraqlı tərəflər, o cümlədən tələbələr, məzunlar, əmək bazarı nümayəndələri arasında əlaqələr, şəbəkələşmə və əməkdaşlığın mövcud vəziyyəti haqqında genişhəcmli tədqiqat aparılır.

Tədqiqatın əsas hədəflərindən biri ali təhsil sisteminin və universitetlərarası əlaqələrin inkişaf etdirilməsinə dair rəylərin öyrənilməsi məqsədilə ali təhsil müəssisələrinin rəhbərləri, Təhsil Nazirliyi və digər dövlət qurumlarının nümayəndələri ilə müsahibələrin təşkil olunmasıdır.

Tədqiqatın ilkin mərhələsində aparılan sorğularda 15 rektor, 349 nəfərdən ibarət idarəetmə heyəti, 518 nəfərlik akademik heyət, 72 nəfər əmək bazarı nümayəndələri, 1429 tələbə və 554 məzun olmaqla ümumilikdə 2937 nəfər iştirak edib.

# Arzusu İŞIQLI olanlar

**İnsan iradəli olan zaman istədiyi arzuya çata bilər və fiziki əngəl belə bunun qarşısını ala bilməz. Təhsil Nazirliyinin Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbinin görmə əngəlli iki məzunu Əzim Əzimov və Gülnaz Talıbov bu ilki qəbul imtahanlarında yüksək nəticə göstərərək arzuladıqları ixtisaslara qəbul olublar. Gözlərinin həyat işığından məhrum olmasına baxmayaraq, gələcəyə ümidlə baxıblar. Onlarla söhbət zamanı bir daha anladım ki, bu gəncləri uğura aparan işıqlı düşüncələri və arzuları olub.**

## Tələbə adını qazanan internat məktəbinin görmə əngəlli məzunlarının uğur hekayəsi

## Əzim Əzimov: “Müəllimlərimin üzərimdə olan əziyyətini unutmaram”



Sizlərə əvvəlcə internat məktəbinin məzunu, 583 bal toplayaraq Bakı Ali Neft Məktəbinin kompüter mühəndisliyi fakültəsinə qəbul olan Əzim Əzimov barəsində söhbət açmaq istərdim. Əzim Famil oğlu Əzimov 2003-cü il mayın 19-da Rusiya Federasiyasının Moskva şəhərində dünyaya göz açıb. Anadangəlmə görmə qüsurlu olduğundan 2009-cu ildə internat məktəbinə qəbul olub. O, bizimlə söhbətində bildirdi ki, ibtidai savadını məktəbə getməmişdən əvvəl valideynlərindən alıb. Daha sonra internat məktəbində xüsusi proqramlar əsasında təhsilini davam etdirib: “İnternat məktəbində bizlər çox yüksək səviyyədə təmin olunurduq. Orada olduğumuz müddətdə həmişə dövlətin dəstəyini hiss etmişik. Bizlər orada gündə dörd dəfə yeməklə təmin olunur, eyni zamanda dərslərimizi də keçirdik. Fizioterapevtik prosedurlara əsaslanan səmərəli reabilitasiya tədbirlərinə cəlb olunmaqla, bizə cəmiyyətə inteqrasiya imkanlarına malik olmağımız üçün hər cür şərait yaradılmışdır. Orada həyati əhəmiyyət daşıyan bir çox bilikləri sevimli müəllimlərimiz tərəfindən öyrənirdik. Yuxarı siniflərdə və abituriyentlik dövründə isə çox şeyi özüm öyrənmişəm. Hər hansı çətinkliklə qarşılaşanda isə yenə də müəllimlərimə müraciət edirdim. Görmə imkanımın məhdud olmasına və brayl əlifbası ilə oxuyub yazmağıma baxmayaraq, dəqiq elmlər üzrə məktəbdə birincilərdən olmuşam. Elə bu da mənim Dövlət İmtahan Mərkəzinin keçirdiyi qəbul imtahanında iştirak etmək üçün I ixtisas qrupu üzrə sənəd verməyimə kömək olub. İnternat məktəbində təhsil aldığım müddətdə müəllimlərimin düzgün istiqaməti məndə ali təhsil almağıma həvəs yaratdı. Onlar mənim istedadımı hiss edirdilər. Və həmişə məni oxumağa, çalışmağa həvəsləndirirdilər. Müəllimlərimin mənim üzərimdə olan əziyyətini heç vaxt unutmaram. Bu gün internat məktəbinin rəhbərliyi başda olmaqla, hər kəsə təşəkkürümü bildirirəm.

11-ci sinifdə oxuyarkən Respublika Fənn Olimpiadasında iştirak etmişəm Musiqidə piano, gitar, vokal, həmçinin stolüstü oyunlarda şahmat və dama ilə məşğul olmuşam. Nəticədə bu il öz istəyimlə 582.3 balla I ixtisas qrupu üzrə müsabiqəyə qatılıb Bakı Ali Neft Məktəbinin kompüter mühəndisliyi (tədris ingilis dilində) ixtisasına qəbul olmuşam. Çünki uşaqlıqdan bu ixtisasa böyük həvəsim var idi.

Artıq bir neçə gündür ki, ali məktəbdə dərsə başlamışıq. Orada məni çox yaxşı qarşılayırlar. Ali məktəbdə elə bir mehribanlıq var ki, sanki özümü gözdən əlil hesab etmirəm. Mən indiyə qədər inanmırdım ki, hansısa gözdən əlil bu yüksəkliyə qalxa bilər. Mənə bu yolda kömək edən valideynlərimə də təşəkkür edirəm. Onlar hər zaman mənim yanımda oldular. Görmə qüsuru olsam da özünə güvənmək istənilən arzuya çatmaq üçün insana ən böyük köməkdir”.

## Gülnaz Talıbova: “Ən böyük arzum müəllim olmaq idi”



Həmin məktəbin görmə qüsurlu digər məzunu - 18 yaşlı Gülnaz Talıbova da arzusuna çatmaq üçün əngəlləri aşan insanlardandır. O, da builki qəbul imtahanlarında yüksək nəticə göstərərək 552 balla Bakı Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat fakültəsinə qəbul olub. Deyir ki, ona ali məktəbə qəbul olmağında ən çox kömək edənlərdən biri də görən gözləri adlandırdığı bacısı olub. Qəhrəmanımızın həm də gözəl səsi və fortepionoda musiqi ifa etmək istedadı var: “Mən Gülnaz Talıbova 2002-ci ildə Ağdam rayonu Zəngişallı kəndində anadan olmuşam. Gözdən əlil olduğumdan 2009-cu ildə Təhsil Nazirliyinin Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbinin I sinfinə qəbul olmuşam. Mən də hər kəs kimi məktəbdə oxuduğuma görə çox sevinirdim. Müəllimlərimiz çox qayğıkeşliklə dərslər keçirdilər. Tez-tez məktəbdə müxtəlif tədbirlər keçirilirdi. Mən də həmin tədbirlərdə fəal iştirak edirdim. Müəllimlərin sayəsində dərslərmi əla qiymətlərlə oxuyurdum. Bütün dərslərimi sevirdim. Ancaq ən çox sevdiklərim Azərbaycan dili və alman dili olub. Ən böyük arzum məktəbdəki müəllimlərimdən ilham alaraq universitetə daxil olub, onlar kimi şagirdlərin sevimlisi olan müəllim olmaq idi. Artıq bu arzunu reallaşdıran nərdivanın ilk pillələrindəyəm. Bu uğuruma görə başda internat məktəbinin direktoru İradə Vəzirova olmaqla, bütün müəllimlərimə sonsuz təşəkkürümü və sevgimi bildirirəm. Mənə elə gəlir ki, görmə əngəlli olsam da insanın iradə və əzmi güclü olsa hər arzuya çata bilər. Bu yolda usanmadan gecə-gündüz demədən çalışmaq lazımdır. Musiqini də çox sevirəm. Yaxşı səsimin olduğunu deyirlər. Məktəbdə və respublika daxili tədbirlərdə, müsabiqə və festivallarda iştirak etmişəm. Qabaqcıl yerləri tutmuşam. Bundan başqa Moskva və Türkiyənin müxtəlif şəhərlərində çıxışlarım olub. Özümə aid mahnılarım və bəslədiyim musiqilərim də var. Sonda bu yolda mənim ən böyük dayağım olan bacıma çox minnətdaram. Bacım mənim görən gözlərim olub. O, mənimlə bərabar, gecələr yatmayıb, kitabları və tapşırıqları mənə oxuyub. Mən onun zəhmətini ömür boyu unuda bilmərəm”.

Qeyd edək ki, 2020-2021-ci tədris ilində internat və internat tipli təhsil müəssisələrindən 1954 nəfər şagird məzun olub. Onlardan 1262 nəfər ümumi orta təhsil pilləsi üzrə, 533 nəfər tam orta təhsil pilləsi üzrə və 159 nəfər isə xüsusi təhsil sinifləri üzrə məzun olub.

Tam orta təhsil pilləsini bitirmiş 202 şagird ali təhsil müəssisələrinə (500-600 bal arası 28 nəfər, 4 nəfər isə 600 baldan çox bal toplayıb), ümumi orta təhsil pilləsi üzrə 120 şagird orta ixtisas təhsil müəssisələrinə, ilk-peşə ixtisas təhsili üzrə 125 şagird peşə təhsil müəssisələrinə, 10 nəfər isə xarici ölkələrdə ali təhsil müəssisələrinə (9 nəfər Türkiyə Respublikasında fəaliyyət göstərən müxtəlif universitetlərə, 1 nəfər isə Xarkov Milli Daxili İşlər Universitetinə) qəbul olunublar.

**Rəşad ZİYADOV**

# STEM, STEAM, STREAM

## Tədris prosesində istifadə olunan yeni pedaqoji texnologiyalar kimi



***Annotasiya:*** **STEM, STEAM, STREAM tədris prosesi zamanı istifadə edilən yeni pedaqoji texnologiyalar kimi öncül müddəaları nəzərdən keçirilir. Təlim-tərbiyə prosesində təhsilalanlara yanaşmalara yenidən baxılması üçün zəruri tələblər analiz edilir. Müəllif həmin texnologiyaları və onların təhsil prosesi zamanı istifadə edilməsinə düzgün yanaşmanı ətraflı təsvir edir. Məqalədə STEM, STEAM və STREAM təhsilinin fənlər üzrə deyil, mövzular üzrə inteqrasiya olunmuş təhsil kimi üstünlüklərinin təhlili verilir: kreativ düşüncə və problemlərin həllinə yönəlmiş vərdişlərinin inkişafı; texniki yönümlü fənlərə marağın inkişaf etdirilməsi və s. Praktik olaraq STEM, STEAM, STREAM texnoloji vasitələr üzrə riyazi məsələlərə aid bir sıra ideya və onların həlli yolları təklif edilmişdir.**



**Hümeyir ƏHMƏDOV,**

*ARTİ-nin Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri, pedaqogika üzrə elmlər doktoru, professor, Rusiya Təhsil Akademiyasının xarici üzvü, RTA-nın əməkdar elm və təhsil xadimi*

Müasir təhsil müəllimlərə kömək məqsədi ilə yeni yanaşma və təşəbbüslərin inkişaf etdirilməsi baxımından durmadan irəliləməkdədir, bunun sayəsində təlim keçənlərə yeni informasiya texnologiya (İT) və resurslarını mənimsəmək üçün dəstək verilir. Müəllimin fəaliyyətinə innovasiya təcrübəsinin daxil edilməsi və tətbiqində mühüm əhəmiyyət kəsb edir. Şagirdlərlə iş üzrə mövcud olan model və yanaşmaları nəzərə alaraq müəllimlər praktikayönümlü təlim seçimi edir. Mövcud praktik materialı nəzərdən keçirmək və oxucuları STEM, STEAM, STREAM texnologiyalarının təhsil prosesinə daxil edilməsinin əsas müddəaları ilə tanış etmək lazımdır. Ən geniş yayılmış texnologiyalardan biri STEM (ingiliscə "science", "technology", "engineering", "mathematics" sözlərindən akronim) texnologiyası - tamamilə yeni bir yanaşma irəli sürərək şagirdin yaradıcı tapşırıq və məsələlərin həlli vasitəsilə elmi, təbiət və texniki fənlərdə biliklər əldə etməsini nəzərdə tutur. STEM əsasında təlim həm təhsilalanların akademik nailiyyətlərini artırmağa imkan verir, həm də onların gələcək karyerasında vacib olan bilik və vərdişləri aşılayır. Təhsildə bu yanaşmanın əsas məqsədi təhsilalanlarda innovasiya, yaradıcı bacarıqlar, kreativ düşüncə, ünsiyyət və əməkdaşlıq üzrə effektiv vərdişləri inkişaf etdirərək onların zəruri işçi heyəti kimi əmək bazarında artımını stimullaşdırmaqdır.

Digər texnologiya - STEAM ("Science", "Technology", "Engineering", "Arts", "Mathematics") STEM texnologiyasının analoqu olmaqla bərabər, əsas fərqi ondan ibarətdir ki, fənlərin siyahısına incəsənət də daxildir.

STREAM ("Science", "Technology", "Reading+Writing", "Engineering", "Arts", "Mathematics") isə fənlərarası kompleks yanaşmadır. Burada innovasiya texnologiyalarının həyata keçirilməsi zamanı fənlərarası inteqrasiya prosesində müəllim və təhsilalanlar tədqiqat fəaliyyətinin nəticəsini layihə şəklində yaradırlar.

Dövlət standartı təbiət elmlərinin ən müxtəlif təhsil bölmələrində innovasiya texnologiyaları haqqında bilikləri olan yüksək kateqoriyalı mütəxəssislərin hazırlanmasına hədəflənmişdir. Bu halda STEM texnologiyası prioritet istiqamətlərdən birinə çevrilir, həmin istiqamətin tətbiqi və tədris prosesinə daxil edilməsi sayəsində texnoloji prosesin inkişafında mühüm rolu olan elmi-mühəndislik kadrları ilə gələcəkdə ölkəni təmin etmək mümkündür.

STEM, STEAM, STREAM texnologiyalarının əsas fərqlərini, mənfi və müsbət cəhətlərini iki əsas yanaşmanın təhlilini aparmaqla ayırd etmək olar: Ənənəvi yanaşmada fənlər üzrə praktik məşğələlərin say azlığı təhsilalanların daha sonra tədqiqat aparmağa olan motivasiyasını əhəmiyyətli dərəcədə azaldır, öz növbəsində müasir yanaşmalardan istifadə isə həm dərsin əhatə dairəsini genişləndirməyə və bilikləri praktikada tətbiq etməyə kömək edir, həm də sinifdə və ya sərbəst iş üçün motivasiya yaradır.

Şagirdlər üçün müəllim ümumi mədəni dəyərlərin örnəyidir. Təhsilalanlarda lazımi bilik və bacarıq sisteminin uğurla inkişaf etdirilməsi birbaşa olaraq ardıcıl və məntiqlə qurulmuş təhsil proqramından və təhsilverənlərdən asılıdır. Bununla belə, müəllimin praktikadan nəzəriyyəyə keçməyə düzgün yanaşma bacarığı şagirdləri problemli təlimə motivasiya edir.

Texnologiyaların təhsil fəaliyyətinə daxil edilməsinin bir nümunəsini nəzərdən keçirək. İbtidai sinifdə "Həyat bilgisi" fənni tədris olunur. Dərsin əvvəlində məşğələnin mövzusuna uyğun kiçik bir sənədli filmə baxmaq və müəllimlə birgə xüsusi tapşırıqları yerinə yetirmək təklif edilir. Beləliklə, təhsilalanlarda dərsin mövzusuna uyğun təsəvvürlər formalaşır, onlar birlikdə rəsm çəkmək və əl işləri hazırlamaqla praktik bilikləri əldə edirlər. Sonra audio yazılışların dinlənilməsi, videolara və internet saytlarına baxılması vasitəsilə ayrılıqda hər məqam detallı öyrənilir, bunun üçün hazırlaşmağa vaxt ayrılır. Daha sonra əldə edilmiş informasiyanın qavranılma səviyyəsini müəyyənləşdirmək üçün test aparılır, bundan sonra isə şagirdlər yaradıcı işi yerinə yetirirlər ki, bu da təhsil fəaliyyətinin məntiqli olması üçün əsas yaradır. Sonda mövzu üzrə sinif işini birlikdə yerinə yetirmək lazımdır, nəticədə şagirdlər konkret mövzu üzrə əldə etdikləri bilikləri nümayiş etdirirlər.

Təhsilə ənənəvi yanaşma ilə STEAM texnologiyasından istifadə arasındakı əsaslı fərqləri görməmək mümkün deyil. Tədqiqatlar göstərir ki, STEAM yanaşması təhsilalanlarda yaradıcı və yenilikçi yanaşmanı inkişaf etdirir.

Şagirdlər tədqiqat və həyat bilgisi vərdişlərini inkişaf etdirməklə, təcrübə fəaliyyətində özlərinin uğurları və uğursuzluqları ilə bölüşmə, həmçinin komandada bu və ya digər məsələlərin həlli və ya layihələr üzərində işləmə bacarığını formalaşdırmaqla vaxtının böyük hissəsini hazırlaşmağa sərf edirlər. Beləliklə, təhsil praktikasında STEAM texnologiyası materialın sadəcə öyrənilməsinə deyil, hər şeydən əvvəl təhsil vərdişlərinin formalaşması və inkişafına yönlənmişdir. Belə yanaşmanın əsas cəhətləri birgə iş, səhvlərin düzəldilməsi və yeni tədqiqat tapşırıqlarının yerinə yetirilməsi, yeni ideyaların yaradılmasıdır. Praktiki vərdişlərlə səbəb-nəticə əlaqəsini qurma bacarığının vəhdətdə istifadəsi və tədqiqat üzrə analiz və sınaqların müstəqil keçirilməsi STEAM yanaşmasının əsas fərqidir. Beləliklə, bu cür yanaşma təlim üsulu və metodu deyil, daha çox düşüncə üsuluna çevrilir, çünki bilikləri qazanaraq şagirdlər eyni zamanda onlardan praktikada istifadə edirlər. STEAM texnologiyası üzrə təlim keçmiş şagird gələcək həyatda real problemlərlə üzləşərək müxtəlif sahələr üzrə əldə edilmiş bilik və təcrübəyə əsaslanmaqla və komandada işləməklə istənilən çətin məsələləri həll edə bilər. Bu texnologiyaların pedaqoji praktikaya tətbiqi təhsillə bağlı artıq formalaşmış mövqeyi əsaslı surətdə dəyişir. Təhsil sisteminin hazırkı reallığı yeni və effektiv təlim formalarının axtarılmasının zəruriliyi problemini aktuallaşdırmışdır.

**STEM**

**(ingiliscə "science", "technology", "engineering", "mathematics" sözlərindən akronim) texnologiyası - tamamilə yeni bir yanaşma irəli sürərək şagirdin yaradıcı tapşırıq və məsələlərin həlli vasitəsilə elmi, təbiət və texniki fənlərdə biliklər əldə etməsini nəzərdə tutur.**

**STEAM**

**("Science", "Technology", "Engineering", "Arts", "Mathematics") STEM texnologiyasının analoqu olmaqla bərabər, əsas fərqi ondan ibarətdir ki, fənlərin siyahısına incəsənət də daxildir.**

**STREAM**

**STREAM ("Science", "Technology", "Reading+Writing", "Engineering", "Arts", "Mathematics") isə fənlərarası kompleks yanaşmadır. Burada innovasiya texnologiyalarının həyata keçirilməsi zamanı fənlərarası inteqrasiya prosesində müəllim və təhsilalanlar tədqiqat fəaliyyətinin nəticəsini layihə şəklində yaradırlar.**

Hazırda STEAM texnologiyası üzrə işləməyə başlayan müəllimlərə məktəbyaşlı uşaqları STEAM sahəsinin təlim modelləri ilə tanış etmək və artıq sahib olduqları pedaqoji təcrübəni tədqiq etmək təklif olunur. Məsələn, STEM və STREAM yanaşmalarından hər ikisinin realizə olunması üçün müvafiq alətlər geniş tanınmışdır, bunlar 4 yaşdan 16 yaşadək uşaqlarla məşğələlər üçün müxtəlif çətinlikli LEQO konstruktor dəstləridir. Bu cür həllərin fərqləndirici xüsusiyyəti onların parlaqlığı, sadəliyi, cazibədarlığı və demək olar ki, hər uşağın erkən yaşından LEQO konstruktor oynaması, ən əsası isə inteqrasiya olunmuş məşğələlərdə kompleks məsələlərin qurulması və icra olunması üçün nəzərdə tutulmuş imkanlardır.

Nəticə olaraq müasir texnologiyaları tətbiq etməklə məşğələlərin keçirilməsi şagird və müəllimlərin texniki elmlərə marağını artırır. Hesab edirik ki, STEAM texnologiyasını məşğələdə yeni ideyaların və imkanların mənbəyi kimi problemli situasiyanın həllində tətbiq etmək daha məntiqlidir. Təhsil fəaliyyətinə daha sonra daxil ediləcək aktual layihələr müəllim və şagirdin birgə işinin nəticəsi kimi müzakirəyə çıxarılır. Çox vaxt riyaziyyat fənn müəllimləri STEAM texnologiyasından praktiki işlər üçün axtarış, tənqidi və elmi-tədqiqat biliklərinin formalaşdırılmasında istifadə edirlər.

STEAM texnologiyası sadəcə müxtəlif fənlərin bir dərsdə toplanması deyil. O, təbiət qanunlarını müşahidə və dərk edərək bilikləri təcrübi yolla əldə etmək effektini inkişaf etdirmək cəhdidir. Bir sıra alimlər STEAM texnologiyasını kainat qanunlarının konkret fənlərin prizmasından qavranılmasının ayrıca bir fəlsəfəsi kimi nəzərdən keçirirlərsə, digərləri onda elmin real həyatdan ayrılmasına son qoyulmasının mümkünlüyündə görürlər. STEAM yanaşması əsasında işləyən ölkələrin təcrübəsini analiz etsək, belə nəticəyə gələ bilərik ki, həmin texnologiya indi artıq şagirdlərə lazım olan gələcək 4K vərdişlərini inkişaf etdirmək baxımından kifayət qədər faydalı və maraqlı texnologiyadır. Bəs 4 K dedikdə, nə başa düşülür? - kommunikasiya, kooperasiya, tənqidi düşüncə, kreativlik. Eyni zamanda bu texnologiyanı daxil edərkən təhsilin məqsədlərini və şagirdlərin hazırlanması prosesində hər bir fənnin vacibliyini unutmamalıyıq.

Ətraf aləmdə qırılmaz qarşılıqlı əlaqələri görmək, dünya haqqında bütöv təsəvvürün formalaşması və gələcək həyatda elmi biliyin dəyərinin anlamı STEAM texnologiyasının məzmunu və metodlarını formalaşdırmağa imkan verir. Bu texnologiyaların təhsil praktikasına daxil edilməsini vurğuluyaraq deyə bilərik ki, bu cür yanaşmaların məktəbəqədər təhsil səviyyəsində tətbiq olunması müxtəlif fənlər üzrə inteqrasiya olunmuş məşğələlər vasitəsilə həyata keçirilə bilər. Həmin texnologiyaların ümumi təhsil pilləsinin kurikulumunda tətbiqi həm də aktualdır: məsələn, ibtidai siniflərdə riyaziyyat dərsində STEM LEQO konstruktor texnologiyasından istifadə etməklə, "Parça. Şüa. Düz xətt." mövzusunu izah etmək və əyani şəkildə göstərmək mümkündür. Bunun üçün əyani vəsait olaraq adi yazı taxtası deyil, konstruktordan istifadə olunur.

Ölkəmizdə təmayüllü ümumtəhsil məktəblərində STEAM texnologiyasına üstünlük verilərək təlimə daxil edilməsi: veb-sayt yaradılması, veb-dizaynın işlənməsi və s. kimi əyani şəkildə göstərilə bilən informatika dərslərindən başlayaraq fərdi qadjetlərdən (smartfon, İpad, noutbook) interaktiv yazı taxtasından, sərbəst iş və ya qrup məşğələsinin təşkili üçün videodan istifadə olunduğu bütün fənlərin tədrisi zamanı tətbiq oluna bilər. STEAM proqramlarından praktikada istifadə olunması məktəblilərin gündəlik dərs və məşğələlərə hazırlaşması üçün marağının artmasına səbəb olur. STEAM texnologiyasından məktəb proqramında fizika dərsi və dərsdənkənar məşğələlərdə istifadə olunması informasiyalı olacaqdır, məsələn, cəzbetmə qüvvəsini əvvəlcə düsturlar vasitəsilə interaktiv taxta üzərində göstərmək, təcrübə-eksperimental fəaliyyətin elementini dərsə əlavə etməklə isə əldə olunmuş bilikləri möhkəmləndirmək olar. Çox vaxt məktəblilərə eşitdikləri terminləri yadda saxlamaq və anlamaq çətin gəlir, buna görə STEAM texnologiyası vasitəsilə yalnız termini vermək deyil, həm də əyani şəkildə həmin terminin mənasını izah etmək mümkündür; müxtəlif sınaqları daxil etmək və keçirməklə isə məktəblilər verilmiş materialı tez və asan anlaya bilir.

STEAM texnologiyasından istifadə olunması sadəcə olaraq məktəblinin ətraf aləmin müxtəlif səviyyəli əlaqələri və kompleksliliyini dərk etməsində müəllim üçün gözəl bir vasitə, dəyərli imkandır. Bu texnologiyanın əsas ideyası ondan ibarətdir ki, zəruri olan yalnız zehni qabiliyyəti tətbiq etmək, nəzəriyyəni bilmək deyil, həmçinin bilikləri praktikada tətbiq etməkdir; yalnız təhsil müəssisəsinin hüdudları çərçivəsində təlim isə lazımi səriştə səviyyəsini və müasir dünyanın dəyişən tələblərinə uyğun olmasını təmin edə bilməz. Bu texnologiyanın əsas fərqi ancaq biliklərin deyil, praktikanın da tətbiq edilməsinin zəruriliyidir, uşaqlar bütün bilikləri özlərinin sınaq-tədqiqat fəaliyyəti əsasında əldə edirlər. Öz növbəsində texnologiyalardan istifadə olunması hər bir ümumtəhsil məktəbində istedadlı uşaqların müəyyən edilməsi üçün daha uyğun mühitin yaradılmasına şərait yaradır. STEAM texnologiyası şagirddə yeni düşüncə tipini inkişaf etdirməyə əsaslanır. Həmçinin XXI əsrdə müasir texnologiyaların tətbiq olunduğu yüksək səviyyəli innovasiyalı təlim metodudur.

STEAM təlimi - tamamilə yeni metodika olmaqla şagirdə müxtəlif vərdişlərin təkmilləşdirilməsinin daha yüksək səviyyəsinə nail olmağa imkan verir. Müəllim öz işində STEAM texnologiyasını tətbiq edərkən əsas pedaqoji prinsipləri nəzərə almalıdır. Onun təhsil praktikasına daxil edilməsi üzrə tədqiqatın gedişindən belə nəticəyə gəlmək olar ki, məktəblilərə dərs və ya məşğələdə müstəqil olaraq qərar qəbul etməyə, tədqiqatlar aparmağa kömək edir. Bu yanaşmada müəllimlər inkişaf və təlimdə köməkçi kimi iştirak edirlər. STEAM texnologiyasının təhsilə inteqrasiyasının Azərbaycanda nisbətən yeni yanaşma olduğunu nəzərə alaraq, deməliyik ki, bu sahədə elmi tədqiqatlar kifayət etmir. Sözügedən mövzu gələcək tədqiqatlar üçün yeni imkanlar açır.

Beləliklə, STEAM texnologiyasının Azərbaycan məktəblərində istifadə olunmasına yanaşmanın nə dərəcədə uğurlu tətbiq edilməsinin öyrənilməsi; həmçinin müəllim və məktəblilərin bu yeniliklərin tətbiq olunmasına hazırlıq dərəcəsinin müəyyən edilməsi; həm nəzəri, həm də texnoloji biliklər nöqteyi-nəzərindən bu işdə yaranan və müəllimlərin, təhsilalanların və məktəb administrasiyasının qarşılaşdığı problemlərin tədqiq olunması; qabaqcıl ölkələrin təcrübəsinə əsaslanaraq həmin problemlərin optimal həllinin axtarılması gələcəkdə sistemli tədqiqatların aparılmasına əsas verir. STEAM yönümlü tədbirlər; Azərbaycan Respublikasının Təhsil İnstitutunda davamlı olaraq dünya təcrübəsi öyrənilir, onun ölkəmizdə uğurlu tətbiqinin optimal yolları müəyyənlişdirilir.




# Beynəlxalq qiymətləndirmə tədqiqatlarının təhsil sistemlərinin inkişafında rolu



**İzzət ABBASLI,**
*ARTİ-nin Milli və beynəlxalq qiymətləndirmə tədqiqatları şöbəsinin mütəxəssisi*

**Təhsilin əsas prioritetləri dünya inkişaf etdikcə, iqtisadi və siyasi sahələrə ciddi təsir edən hadisələr baş verdikcə dəyişikliyə məruz qalır. Təhsilin texnologiya ilə inteqrasiyası, əmək bazarının tələblərinin daha çox bacarıq yönümlü olması və digər oxşar məsələlər bu dəyişikliyə nümunədir. Həmin dəyişikliklər özünü yeni dərsliklərdə, kurikulumların (təhsil proqramı) yenilənməsində və müəllimlərin texnologiyadan istifadəsində göstərir.**

Lakin yeniliklərlə bərabər təhsilin keyfiyyəti də nəzarətdə olmalı və təhlil edilməlidir.

Təhsilin keyfiyyəti şagirdlərin nailiyyətləri ilə birbaşa əlaqəlidir. Bu səbəbdən, ölkəmizdə müxtəlif qiymətləndirmə tədqiqatları həyata keçirilir və şagirdlərin nəticələri həm ölkə, həm də beynəlxalq müstəvidə təhlil edilir. Keçirilən qiymətləndirmə tədqiqatları təhsildə vəziyyətin ümumi mənzərəsini görməyə imkan verir, ölkələri təhsil siyasəti, kurikulum və şagirdlərin öyrənmə sistemi üzrə istiqamətləndirir.

Azərbaycanda qiymətləndirmə tədqiqatlarını Azərbaycan Respublikasının Təhsil İnstitutunun struktur vahidi olan Milli və beynəlxalq qiymətləndirmə tədqiqatları şöbəsi həyata keçirir. Artıq ölkəmizin milli tədqiqatlarla yanaşı beynəlxalq tədqiqatlar sahəsində də kifayət qədər təcrübəsi var.

**PISA**

Azərbaycanda keçirilən beynəlxalq qiymətləndirmə tədqiqatlarından biri PISA (Programme for International Student Assessment) - Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramıdır. Bu proqram İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (Organisation for Economic Co-operation and Development) tərəfindən 3 ildən bir təşkil olunaraq 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və elm sahələri üzrə məktəbdə qazandığı biliklərdən həyatda, məişətdə qarşılaşdıqları problemləri həll etmək üçün istifadə etmək bacarığını ölçür.

Azərbaycan 2006, 2009 və 2018-ci illərdə keçirilən PISA tədqiqatında iştirak edib. Növbəti PISA tədqiqatı isə COVID-19 pandemiyası ilə əlaqədar olaraq bir qədər geciksə də, əsas mərhələnin 2022-ci ildə keçirilməsi planlaşdırılır. PISA 2022 tədqiqatında şagirdlərin oxu, riyaziyyat və elm sahələrindən başqa, yaradıcı düşünmə ilə əlaqədar bilik və bacarıqları da qiymətləndiriləcək.

Azərbaycanda keçirilən sonuncu PISA göstəricilərinə əsasən şagirdlərin riyaziyyat üzrə orta balı 420, oxu üzrə 389 və təbiət elmləri üzrə isə 398 olub.

**PIRLS**

PIRLS (Progress in International Reading Literacy Study) - Oxu Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Tədqiqat IV sinif şagirdləri arasında keçirilir. Şagirdlərin oxu bacarıqları haqqında daha ətraflı məlumat əldə etmək üçün tədqiqat çərçivəsində seçilmiş məktəblərin müəllim və direktorları ilə sorğu aparılır. Azərbaycan 2011, 2016 və 2021-ci illərdə PIRLS tədqiqatında iştirak edib.

Tədqiqatın əsas mərhələsi cari ilin aprel-iyun aylarında Azərbaycan Respublikası Təhsil Nazirliyi və Təhsil İnstitutu tərəfindən həyata keçirilib. Bütün ölkəni əhatə edən qiymətləndirmədə müxtəlif regionların 200 məktəbinin təxminən 7000 şagirdi təmsil olunub. Qiymətləndirmə tədqiqatı üçün seçilmiş 254 sinifdən 201-i Azərbaycan, 53-ü isə rus bölməsinin payına düşüb. Hazırda şagirdlərin nəticələri təhlil olunur.

Əvvəlki illərin PIRLS nəticələri arasında müəyyən qədər artım müşahidə olunur: şagirdlərimiz 2011-ci ildə 462 bal toplasa da, 2016-cı ildə bu göstərici 472-yə qalxıb. Qeyd etmək lazımdır ki, PIRLS üzrə ölkələrin ümumi orta balı 500 hesab edilir.

**TIMSS**

Beynəlxalq qiymətləndirmə tədqiqatlarından digəri isə 4 ildən bir IV və VIII sinif şagirdləri arasında həyata keçirilən TIMSS (Trends in International Mathematics and Science Study) - Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramıdır. Tədqiqatın əsas məqsədi şagirdlərin nəticələri əsasında riyaziyyat və təbiət elmləri üzrə təlim və tədrisin təkmilləşdirilməsi üçün məlumat toplamaqdır. TIMSS vasitəsilə kurikulumların tətbiqi, tədris resursları, məktəbdə öyrənmə mühiti və s. barədə ətraflı məlumat əldə edilir.

Təhsil sisteminin effektivliyinin ölçülməsinə kömək edən TIMSS tədqiqatında ölkəmiz 2011 və 2019-cu illərdə yalnız IV sinif şagirdləri ilə iştirak edib. 2011-ci illə müqayisədə şagirdlərimizin riyaziyyat üzrə orta göstəricisində irəliləmə, təbiət elmləri üzrə isə geriləmə olub. 2019-cu ildə Azərbaycanın riyaziyyat üzrə nəticəsində TIMSS-in tədqiqat dövrləri arasındakı ən böyük fərqlərdən biri müşahidə edilib. Növbəti, yəni 2023-cü ildə keçiriləcək qiymətləndirmə tədqiqatında Azərbaycan həm IV, həm də VIII sinif şagirdləri ilə iştirak edəcəkdir.

**ICILS**

ICILS (International Computer and Information Literacy Study) - Kompüter və İnformasiya Savadlılığı üzrə Beynəlxalq Tədqiqat VIII sinif şagirdləri arasında aparılır. PIRLS və TIMSS kimi, bu tədqiqatın da təşkilatçısı Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyadır. ICILS iştirakçı ölkələrə şagirdlərin XXI əsrin tələblərinə uyğun kompüter və informasiya sahəsi üzrə bilik və bacarıqlarını və bu bacarıqlara yiyələnmək üçün lazım olan ev və məktəb mühitini qiymətləndirmək imkanı verir.

Azərbaycanın ICILS tədqiqatında iştirakı 2023-cü il üçün nəzərdə tutulub. Beləliklə, azərbaycanlı şagirdlərin kompüter və informasiya texnologiyaları ilə əlaqədar bilik və bacarıqları müəyyən edilərək bu sahə üzrə ölkədəki ümumi vəziyyət təhlil olunacaq və müvafiq qərarların verilməsinə imkan yaradacaq.

**TALIS**

Şagird nailiyyətlərinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən beynəlxalq qiymətləndirmə tədqiqatları təhsil sistemi haqqında məhdud məlumat verir. Bu səbəbdən, müəllimlər arasında da beynəlxalq tədqiqatın keçirilməsi təhsilin keyfiyyətinin ölçülməsi baxımından əhəmiyyətlidir. TALIS (Teaching and Learning International Survey) - Təlim və Tədris üzrə Beynəlxalq Araşdırma müəllimlərin və məktəb rəhbərlərinin təhsillə bağlı yanaşmalarını anlamaq məqsədilə keçirilən tədqiqat hesab olunur. 2008-ci ildən başlayaraq 5 ildən bir keçirilən TALIS tədqiqatı aşağıdakı mövzular üzrə qiymətləndirmə aparır:

* *Müəllimlərin tədris təcrübələri*
* *Müəllimlərin peşəkar təcrübələri*
* *İdarəetmə bacarığı*
* *Müəllim hazırlığı*
* *Müəllimlərin peşəkar inkişafı*
* *Məktəb mühiti*
* *İş məmnuniyyəti*
* *İnsan resursları ilə əlaqədar məsələlər*
* *Bacarıqlara dair əminlik*

Azərbaycanın TALIS 2024 tədqiqatında ilk dəfə iştirakı nəzərdə tutulur.

Bir daha vurğulayaq ki, beynəlxalq qiymətləndirmə tədqiqatları təhsil sisteminin ümumi vəziyyəti haqqında məlumat verir, dünya standartları ilə müqayisədə çatışmazlıqları aşkar etməyə imkan yaradır. Nəticədə, bu tədqiqatlardan əldə olunan elmi-statistik göstəricilər əsasında təhsil sistemləri müvafiq qərar qəbul edir.

# ARTİ təhsildə innovasiyalar sahəsində fəaliyyətini genişləndirir



**Abutab ABBASOVA,**
*ARTİ-nin Təhsildə innovasiyalar şöbəsinin müdiri*

**Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsildə innovasiyalar şöbəsi ölkəmizdə innovativ məzmunun hazırlanmasının və ondan istifadənin, təhsil müəssisələrində tədqiqat və innovasiya fəaliyyətlərinin təşviqi məqsədilə müxtəlif işlər görür. 2021/2022-ci tədris ilində bu kimi fəaliyyətlərin genişləndirilməsi nəzərdə tutulmuşdur.**

Ali təhsil müəssisələri və sənaye əməkdaşlığı ətrafında mövzulara diqqəti cəlb etmək məqsədilə tanınmış yerli və beynəlxalq ekspertlərin spiker qismində iştirak etdiyi "İş dünyası və ali təhsildə trendlər" vebinarlar silsiləsi 2021-ci ilin əvvəlindən həyata keçirilir. Bu günədək məhsul menecmenti, e-ticarət, biznes və data analitikası, layihələrin idarə edilməsi, elmi-tədqiqat müəssisəsi və s. kimi mövzularda 12 vebinar təşkil edilib və 2000-dən çox təhsil işçisi, iş dünyasının nümayəndələri və tələbələr bu vebinarlardan faydalanıb. Geniş kütləyə malik olan bu silsilənin növbəti ildə davam etməsi nəzərdə tutulur.

Sənaye/iş dünyasında çalışan əməkdaşların ali təhsil müəssisələrində pedaqoji fəaliyyətə cəlb edilməsini dəstəkləmək və onların pedaqoji bacarıqlarını artırmaq məqsədilə yeni tədris ilində təlimlərin təşkili planlaşdırılır. Sözügedən şəxslərin təlimlər vasitəsilə ali təhsildə pedaqogika və psixologiya, qiymətləndirmə, təlim metodları, sillabusların tərtib edilməsi və s. barədə biliklərini artırması, tədris prosesində rəqəmsal texnologiyalardan istifadə etməyi öyrənməsi, elmi rəhbərlik etmək üçün əsas bacarıqlara yiyələnməsi, tələbələrin fəaliyyətinə vaxtında və tam nəzarət etməsi gözlənilir.

Azərbaycan universitetləri, elmi mərkəzləri və texnoparklarda doktorantura təhsili, tədqiqat və ixtiranın müasirləşdirilməsinə töhfə vermək məqsədilə 5 elektron kursun (Tədqiqat metodologiyası, təcrübələr və layihələr; Verilənlərin toplanması, emalı və idarə edilməsi; Elmi işlərin yazılması və nəşri; Əqli mülkiyyət hüquqlarının prinsipləri, texnoloji transfer və kommersiyalaşdırma; Sahibkarlıq və startaplar) Azərbaycan dilində yenidən istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Sözügedən e-kurslar Avropa İttifaqının maliyyələşdirdiyi "Azərbaycan ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi" layihəsi çərçivəsində hazırlanıb.

Mövcud tədqiqat potensialının gücləndirilməsi və ölkədə keyfiyyətli tədqiqatların sayının artırılması məqsədilə Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən cari ildə icrasına başlanılan "ARTİ Tədqiqat Mentorluq Proqramı" çərçivəsində 43 menti üçün 14 sentyabr tarixindən başlayaraq 12 fərqli mövzunu əhatə edən silsilə təlimlər start götürüb. Təlimlərin məqsədi mentilərin tədqiqat bacarıqlarının və proqramın effektivliyinin artırılmasıdır.

Yeni tədris ilində hədəflərdən biri də "İlk5il" tətbiqetməsinin təkmilləşdirilməsidir ki, bu tətbiqetmənin yaradılmasında əsas məqsəd valideynləri övladlarının 5 yaşına qədərki dövrünə dair müxtəlif mövzularda maarifləndirməkdir. Sözügedən "İlk5il" platforması "İcma əsaslı məktəbəqədər təhsil" layihəsi çərçivəsində yaradılıb.



# Tələbələr Milli Qəhrəmanın ailəsini ziyarət edib

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) incəsənət və fiziki tərbiyə fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə Vətən müharibəsi qəhrəmanlarının xatirəsinə həsr edilmiş silsilə layihələr çərçivəsində Milli Qəhrəman, şəhid polkovnik İlqar Mirzəyevin ailəsi ziyarət olunub.

Görüşdə ADPU TGT-nin sədr müavini, incəsənət və fiziki tərbiyə fakültəsi TGT İdarə Heyəti üzvləri və tələbələr iştirak ediblər.

Görüşdə incəsənət və fiziki tərbiyə fakültəsi TGT-nin sədr müavini Azadə Zellabdiyevanın çəkdiyi İlqar Mirzəyevin portreti müəllifin özü tərəfindən Milli Qəhrəmanın həyat yoldaşı Güllü xanıma təqdim edilib. O, tələbələrə İlqar Mirzəyevin xatirələrindən, onun xalqına olan məhəbbəti və yüksək xidmətlərindən böyük fəxarət hissi ilə danışıb, Milli Qəhrəman haqqında sualları cavablandırıb.

Sonda şəhid polkovnikin həyat yoldaşı tələbələrə İlqar Mirzəyevə ithaf olunmuş kitabı hədiyyə edib.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 7978 **Sifariş** 1913

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2018-ci ildə Kazımova Səma Çərkəz qızına verilmiş E-015891 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şamaxı** Mədəni-Maarif Texnikumu tərəfindən 1994-cü ildə İbrahimova (Abdullayeva) Nəzakət Qafil qızına verilmiş AB-II-024057 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Talış kənd tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Quliyeva Pərvanə Habil qızına verilmiş A-833692 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 164 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Verdiyev Elvin Zaman oğluna verilmiş B-160347 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Qızlar Universiteti** tərəfindən 2014-cü ildə Səfərli (Məmmədova) Dünya Elman qızına verilmiş A-033273 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Oğuz şəhər** 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Bəkirov Səxavət Elməddin oğluna verilmiş A-154180 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 75 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Mərdanova Bəyim Seyidbaba qızına verilmiş A-389257 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2019-cu ildə Məmmədov Şahin Yasin oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Regional Kolleci** tərəfindən 2017-ci ildə Cəfərova Nurlanə Şahin qızına verilmiş AA-094894 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1996-cı ildə Cəfərova Lamiyə Dönməz qızına verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 10 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Nağızadə Hatəm Bəxtiyar oğluna verilmiş A-540237 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyi 2004-cü ildə bitirmiş Süleymanova Xəyalə Rəşid qızına verilmiş B-116083 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** İ.Qayıbov adına 1 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Hüseynova Aysel Eyvaz qızına verilmiş C-192826 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2019-cu ildə Əsilzadə Kamran İbad oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2008-ci ildə Məmmədova (Rzayeva) Gülmirə Zöhrab qızına verilmiş B-117960 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Fərziyev Səbuhi Taleh oğluna verilmiş E-275604 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR** Sədərək rayon Sədərək kənd 2 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Məmmədova Pərişan Ənvər qızına verilmiş A-247633 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 2013-cü ildə bitirmiş İsmayılov Kamran Vəli oğluna verilmiş A-210944 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**DİN-nin Polis Akademiyası** tərəfindən 2016-cı ildə Məmmədov Nicat Yusif oğluna verilmiş C-004858 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 1 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Hüseynova Naidə Səmədağa qızına verilmiş A-347971 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Kompüter Kolleci** tərəfindən 2013-cü ildə Muradova Bilqeyis İsmayıl qızına verilmiş AA-033593 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**DİN-nin Polis Akademiyası** tərəfindən 2011-ci ildə Səfərov Azər Əlixan oğluna verilmiş AB-I-078483 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Məktəbi** tərəfindən 2000-ci ildə Yusibova Səbinə Qabil qızına verilmiş AB-II-060932 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 11 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Xəlfətova Nərmin Nəriman qızına verilmiş A-534390 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 9 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Abdullayeva Xəyalə Şuay qızına verilmiş B-108162 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** İ.Rüstəmov adına tam orta məktəbi 2020-ci ildə bitirmiş Adıgüzəlov Ruslan Elşad oğluna verilmiş B-290450 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 6 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Qədimova Könül Vaqif qızına verilmiş A-441061 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli məktəb-liseyi 2000-ci ildə bitirmiş Hacıyev Səbuhi Rövşən oğluna verilmiş 325092 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Humanitar Kolleci** tərəfindən 2014-cü ildə Hüseynzadə Səbinə Xəzər qızına verilmiş AA-054205 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Allahyarlı kənd tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Süleymanova (Əhmədova) Gülnar Nüşrəvan qızına verilmiş A-404937 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Məmmədova Aydan Mütəllif qızına verilmiş A-091121 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2002-ci ildə Orucov Ramin Yafəs oğluna verilmiş A-094982 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 2001-ci ildə Bağırova Leyla Aydın qızına verilmiş AB-II-076276 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** 5 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş İsmayılova Nigar Qurban qızına verilmiş A-203316 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** İbadulla kənd tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Nağıyev Səfər Kamil oğluna verilmiş A-382515 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Aşağı Yaycı kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Qasımov Qalib Sədrəddin oğluna verilmiş A-001032 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** H.Mahmudbəyov adına 2 nömrəli Texniki Humanitar Liseyi 2009-cu ildə bitirmiş Ələkbərova Suqra Nazim qızına verilmiş A-759454 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 254 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Rzazadə Mirhüseyn Rövşən oğluna verilmiş E-362287 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 1998-ci ildə Rzayev Yaşar Telman oğluna verilmiş A-025114 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 1996-cı ildə Piriyev İlqar Yaşar oğluna verilmiş AB-I-017151 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1982-ci ildə Datskovskiy Boris Qriqoryeviçə verilmiş ИВ-028054 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 1992-ci ildə Nağıyeva Sevinc Nəsrəddin qızına verilmiş ЦВ-852149 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə İbrahimova Sevil Rza qızına verilmiş A-116054 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1979-cu ildə Potepalov Sergey Aleksandroviçə verilmiş Д-I-011922 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** S.Vurğun adına Təzəkənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Muradova Rübabə Hüseyn qızına verilmiş 07 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 12 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Həşimov Seyran İbrahim oğluna verilmiş B-117567 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**29 nömrəli Orta Texniki Peşə Məktəbi** (indiki 1 nömrəli Bakı Peşə Liseyi) tərəfindən 1980-ci ildə Əliyev Məlik Ələkbər oğluna verilmiş B-123641 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət-Sosial İqtisad Kolleci** tərəfindən 2015-ci ildə Tağıyeva Sevər Nadir qızına verilmiş AA-058301 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 13 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Məmişova (Əliyeva) Ruhəngiz İsgəndər qızına verilmiş B-097885 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2015-ci ildə Əlibəyov Kazım Cavid oğluna verilmiş A-051204 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Surra kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Balayeva Rəna Əsəd qızına verilmiş A-560797 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 4 nömrəli əsas məktəbi 2009-cu ildə bitirmiş Dadaşzadə Gülnar Maarif qızına verilmiş A-854522 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 7 nömrəli məktəb-liseyi 1996-cı ildə bitirmiş Əliyeva Yaqut Həzrətqulu qızına verilmiş A-125424 tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev, Elm, ali və orta ixtisas təhsili şöbəsinin rəhbərliyi və kollektivi nazirlikdə uzun müddət çalışmış Ənvər İmanova oğlu

**BƏXTİYAR İMANOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak Liseyinin rəhbərliyi və müəllim heyəti liseyin ingilis dili müəllimi Türkan Orucovaya qayınatası

**BƏYLƏR QARAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



**Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən sahələrdən biri də məktəbdənkənar təhsil müəssisələridir. Qeyd edək ki, hazırda Təhsil Nazirliyinin tabeliyində 143 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir ki, bunlardan 67-si uşaq-gənclər inkişaf mərkəzi, 76-sı isə uşaq-gənclər idman-şahmat məktəbidir. Məktəbdənkənar təhsil müəssisələrində uşaq və gənclərin sayı 110 min nəfərdən çoxdur.**



# Məktəbdənkənar TƏHSİL

## Media nümayəndələri Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzində

Ölkəmizdə fəaliyyət göstərən məktəbdənkənar təhsil müəssisələrindən biri də Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzidir. Sentyabrın 30-da media nümayəndələrinin iştirakı ilə Mərkəzə mediatur təşkil edilib. Mediaturun əsas məqsədi mərkəzdə yaradılmış şəraitlə tanış olmaq, şagirdlərin məktəbdənkənar fəaliyyət çərçivəsində gördüyü işləri yaxından müşahidə etmək olub. Mediatur çərçivəsində iştirakçılar mərkəzdə dərnək üzvlərinin fəaliyyətini izləyib, əl işlərinə baxış keçirib, dərnək üzvləri və rəhbərləri ilə söhbət aparıblar.

### Mərkəzdə 6000-ə yaxın uşaq və gənc müxtəlif növlər üzrə dərnək üzvləridir

KİV nümayəndələrinə məlumat verən Mərkəzin rəhbəri Firuzə Sultanzadə bildirib ki, uşaq və gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların yaradıcılıq qabiliyyətləri və fiziki imkanlarının inkişafı məqsədilə fəaliyyət çərçivəsində uşaq-gənclər inkişaf mərkəzlərində təsviri incəsənət, dekorativ-tətbiqi sənət, xoreoqrafiya, musiqi, bədii yaradıcılıq, texniki yaradıcılıq, turizm və diyarşünaslıq, ekologiya və intellekt istiqamətləri üzrə dərnəklər, həmçinin uşaq-gənclər idman-şahmat məktəblərində komanda, təkmübarizlik, şahmat, dama olmaqla idmanın 29 növü üzrə qrupların fəaliyyəti nəzərdə tutulub. Qeyd edilib ki, mərkəzdə 6000-ə yaxın uşaq və gənc müxtəlif növlər üzrə dərnək üzvləridir. Mərkəzdə məşğələlər Azərbaycan, ingilis və rus dillərində aparılır.

Firuzə Sultanzadə şagirdlərin mərkəzdəki dərnək və qruplara qeydiyyatı ilə bağlı prosedur qaydalardan da söz açıb: "2020-ci ildən etibarən Təhsil Nazirliyinin birbaşa tabeliyində fəaliyyət göstərən məktəbdənkənar təhsil müəssisələrinin dərnək və qruplarına qəbul üçün elektron qeydiyyat sistemi istifadəyə verilib. Sistemdən istifadə etmək istəyən şəxslər *https://portal.edu.az* linki üzərindən qeydiyyatdan keçməklə şagirdlərin meyl və maraqlarına uyğun idman və yaradıcılıq istiqamətləri üzrə seçim edərək, müxtəlif dərnək və qruplara üzv olmaq üçün müraciət edə bilərlər. Qeydiyyatdan keçən şəxslərə qəbul, dərnək və qrupların dərs cədvəli, tədrisin formatı, həmçinin digər məlumatlar müvafiq müəssisələr tərəfindən əlaqə saxlanılaraq bildirilir".

### Ekoloji biliklər, xüsusi bacarıq və səriştə

Mediatur zamanı mərkəzdə diqqətimizi çəkən dərnəklərdən biri də Ekoklub dərnəyi oldu. Dərnək rəhbəri Pərvin Əzizli bildirib ki, ekoklubda ətraf mühitin qorunması sahəsində məktəblilərin ekoloji biliklərinin artırılması, onlarda xüsusi bacarıq və səriştənin formalaşdırılması əsas məqsədlərdəndir. "Yaşıl Şəbəkə" devizi altında uşaq və gənclərin ekoloji hərəkatının genişləndirilməsindən ibarətdir. Dərnək üzvlərinin bu sahəyə meyl və maraqlarının yüksək olduğunu da deyən dərnək rəhbəri keçirilən məşgələlərin səmərəliliyindən də danışıb.

### Uşaqlar çox rahat və sərbəstdirlər

Mərkəzdəki rəsm dərnəyinin rəhbəri Cavid Dadaşov deyir ki, burada uşaqlar özlərini çox rahat və sərbəst hiss edirlər. Rəsm çəkməyin xüsusi istedad olduğunu deyən dərnək rəhbəri sənətin sirlərinin mərhələli şəkildə dərnək üzvlərinə öyrədildiyini diqqətə çatdırıb. 20 nəfərdən çox dərnək üzvünün olduğu dərnəkdə uşaqlar eyni zamanda sosiallaşırlar.

### Avropa üçüncüsü

Mərkəzdə diqqət çəkən dərnəklərdən biri də taekvando dərnəyi idi. Dərnəyin rəhbəri Seymur Şahbazlı şagirdlərin respublikamızda və beynəlxalq arenalarda qazandığı uğurlardan danışıb. Qeyd edilib ki, dərnək üzvü Zəhra İsayeva Estoniyanın paytaxtı Tallin şəhərində uşaqlar arasında keçirilən Avropa çempionatında III yerə layiq görülüb. Dərnək rəhbəri yetirməsi Zəhra İsayevanın ölkə birincisi olduğunu da media nümayəndələrinə bildirib.

### Dünya çempionatının qızıl mükafatçısı

Akrobatika dərnəyinin üzvü Aleksey Karataşov da öz fikirlərini media nümayəndələri ilə bölüşüb. O, 2019-cu ildə 11-12 yaşlılar arasında Tokioda keçirilən Dünya çempionatının qızıl mükafatçısıdır. Kiçik yaşlarından akrobatika ilə məşğul olduğunu deyən Aleksey artıq on ildir ki, dərnək üzvüdür. O, dərnəkdə mütəmadi olaraq məşğələlərin keçirildiyini deyərək, gələcək hədəflərindən də söz açıb.

Mediaturun sonunda "Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik" mövzusunda məktəblilərin respublika müsabiqəsində qalib olanların mükafatlandırılma mərasimi keçirilib.

**Niyazi RƏHİMOV**

# Beş yaşlıların məktəb hazırlığı



**Hər bir şəxsin həyatının unudulmaz anlarından biri, məhz məktəbə ilk qədəm qoyduğu vaxtlardır. Məktəb həyatinə girişi, bir məktəbli kimi sinfə daxil olması və ən əsası müəllimi ilə tanışlığı onun uşaqlıq çağlarından şəxsiyyət kimi formalaşmasının ilkin mərhələsidir. Ətraf mühit haqqında təsəvvürünün olması, onu dərk etməyə başlaması, insanlarla ünsiyyət yaratma vərdişlərinin, bədii təfəkkür prinsiplərinin, məntiqi, əxlaqi-mənəvi dəyərlərinin, intellektual düşüncə tərzinin yaranması və inkişafı baxımından məktəbəhazırlıq insan həyatında mühüm əhəmiyyət kəsb edir.**

## Məktəbə sevgini, marağı formalaşdıran məktəbəhazırlıq qruplarından...

Təhsil üçün ilk addım kimi xüsusi yükü özündə daşıyan məktəbəhazırlıq prosesi müasir dövrdə daha da inkişaf edir. Müxtəlif formatlı dərslər tədris olunur. Qruplarda "Ətraf aləmlə tanışlıq", "Bədii təfəkkürün inkişafı", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Musiqi və fiziki mədəniyyət" fənləri öyrədilir.

Bakı şəhəri Yasamal rayonu M.Müşfiq adına 18 nömrəli tam orta məktəbin məktəbəhazırlıq qruplarında olduq və oradakı mühiti daha yaxından müşahidə etdik. Dərs prosesinin keyfiyyəti və istiqaməti, dərslərin tədris forması barədə məktəbəhazırlıq qrupunun müəllimi Şəhla Əliyevanın fikirlərini öyrəndik.

- *Məktəbəhazırlıq qruplarında dərslər necə qurulur?*

- Ötən illərdə qrup uşaqların sayına görə 2 hissə olaraq, A-B siniflərinə bölünürdü. Bu ilin qərarına əsasən qruplara bölünmədən bütöv sinif olaraq, gündəlik 30 dəqiqə olur, arada 10 dəqiqə fasilə verməklə növbəti dərs proseslərinə keçid edirik. Bu mərhələdə təhsil alan uşaqlar üçün ev tapşırığı nəzərdə tutulmur. Tədris müvafiq olaraq təlim və metodiki vəsaitlərlə təmin olunur. Qruplarda dərslər həftədə 4 gün olmaqla ümumilikdə həftə ərzində 12 saat keçilir. Hər sinif texnoloji avadanlıqlarla təmin olunur və bu, dərsin gedişatına daha müsbət təsir edir. Uşaqlara dərs zamanı mövzu ilə əlaqədar müxtəlif növ slaydlar təqdim olunur, izlədilir, onların müəllim ilə birlikdə müzakirələrdə iştirakı təmin edilir.

- *5 yaşlı uşaqların tədris prosesində qarşılaşdığınız çətinliklər nələrdir?*

- Bilirik ki, uşaqların hər biri bir ailənin üzvüdür. Bəzi uşaqlar var ki, baxça mühitində olublar və onlarla işləmək sadəcə ailə mühitində böyüyən uşaqlarla işləməkdən daha rahat və əlverişlidir. Sırf ailədən gələn uşaqlarla xüsusi ünsiyyət zamanı çətinliklər yaranır. Buna bir sadə misal olaraq deyə bilərəm ki, adicə qələmin tutulma formasında belə onlar arasında fərq görünür. Düzdür, mən demirəm ki, onlar hər şeyi bilməlidir, bütövlükdə götürəndə onlar onsuz körpədirlər. Onların oturuşunu, duruşunu, dinləmə mədəniyyətini, müraciət etmə formasını öyrətmək və aşılamaq məktəbəhazırlıq müəllimlərinin əsas vəzifəsidir. Müəyyən zaman lazımdır ki, onlar məktəbə öyrəşsin, adaptasiya olsunlar. Biz çalışırıq ki, onlar 1-ci sinfə gedəndə bəzi çətinliklərlə qarşılaşmasınlar. Məhz məktəbəhazırlıq qruplarının da məqsədi budur. Onlar 1-ci sinfə gedəndə əlifbanı tam şəkildə öyrənmiş olurlar, eyni zamanda rəqəmlərlə işləməyi bacarırlar. Yeni tədris ilinə başlayanda müəyyən bazaları olur ki, bu da ibtidai sinifdə onların fəal inkişafını sürətləndirir. Məktəbəhazırlıq bir növ məktəbə olan sevgini, marağı formalaşdırır. Buna misal olaraq, mənim dərs prosesimdə bir hadisəni danışmaq istəyirəm. Deməli, dərsə yeni başlayan həftədə hər bir uşağa müəyyən tapşırıq vermişəm, hansı ki, hər kəs öz bacarığını göstərməlidir. Şagirdlərdən biri mənə hər gün dərsə gələcəyini, məktəbi sevdiyini söyləyir. Belə hallar müəllim olaraq məni çox sevindirir. Demək ki, müəyyən əyləncələr, yarışlar keçirmək uşaqlar arasında məktəbə rəğbəti daha da artırır.

- *Müəllim-şagird-valideyn münasibətləri necə tənzim olunur?*

- Mən peşə fəaliyyətimdə valideynlərə dəfələrlə müraciət etmişəm və etməkdə də davam edirəm ki, həmişə müəllim-valideyn arasında birlik, əməkdaşlıq olmalıdır. Onlar arasında qarşılıqlı anlaşma formalaşmalıdır. Bu, təkcə 5 yaşlı uşaqların valideynlərinə aid deyil, ümumiyyətlə, hər yaş kateqoriyasına şamil olunur. Əgər müəllim sinifdə uşaqlara nəyisə izah edirsə, valideyn də eyni zamanda ev şəraitində bununla maraqlanırsa uşağın öyrəndiyi biliklər faydalı olur. Yəni hər uşağın qavraması eyni olmur. Sizin də müşahidə etdiyiniz kimi, sinifdə "kitablarınızı açın" deyərək uşaqlara müraciət edirəm, onlardan bəzisi bir dəfə söyləməklə anlayır, bəzisi isə yenidən sual verir və yaxud nə dediyimi anlamır. Eyni ilə dərsi anlamaqda da bu çətinliklər baş verir. Biz müəllimlərin valideynlər ilə sosial şəbəkələrdə qrupumuz var. Onlarla mütəmadi ünsiyyətdə oluruq, dərsin gedişatı ilə bağlı məlumatlar paylaşırıq. Hər dərsin sonunda valideynlər qarşısında çıxış edirik, dərsin keyfiyyəti, səmərəliliyi barəsində məlumat veririk. Uşaqların hansı sahədə zəifliyi olduğunu bildiririk. Biz çalışırıq ki, valideyn-şagird-müəllim əməkdaşlığı elə qurulsun ki, nəticəsi yaxşı olsun. Yenə də qeyd edirəm ki, təbii ki, ən böyük məsuliyyət müəllimlərin üzərinə düşür. Biz doğru istiqaməti onlara aşılamağı bacarmalıyıq. Elə uşaq var ki, hansısa suala düzgün cavab vermir. Biz onu danlamamalıyıq, onda eqoistliyi formalaşdırmamalıyıq. Əgər uşaq səhv edibsə, onun üstünə gedəndə, sərt reaksiya verəndə şagirdin xoşuna gəlmir, həm yaşıdları arasında pərt olur, eyni zamanda da həvəsdən düşür. Əksinə, biz "indi etmisən, ancaq növbəti dəfə bu təkrar olmaz" - bu kimi formada desək, o uşağın xoşuna gələcək, tapşırığa yanaşma şəkli dəyişəcək. Burada hər bir uşağa fərdi, psixoloji yanaşma tələb olunur. Biz də uşaqlarla hər gün öyrənir, hər gün yenilənirik. Baxmayaraq ki, biz 5 yaşlı uşaqlarla işləyirik, onlar hər dərsə gəlməmişdən öncə hazırlaşırıq, slaydlar hazırlayıb təqdim edirik. Bununla həm də görüntü ilə qavramanı inkişaf etdiririk.

Belə ki, məktəbəhazırlıq qruplarında dərs keçən müəllimlər gələcək üçün gənc nəsil yetişdirirlər. Məhz məktəbəhazırlıqda hər bir fərdin inkişaf prosesinin təməli qoyulur.

**Tünzalə QULİYEVA**